# Gürcüstan Xalq Müdafiəçisinin 2021-ci il üzrə ayrı-seçkiliyə qarşı mübarizə, onun qarşısının alınması və bərabərliklə bağlı vəziyyət haqqında Xüsusi Hesabatı

2022

# Mündəricat


*Giriş* ... 4

*1. Yeni koronavirusla bağlı tətbiq edilən qaydaların bərabərlik prinsipinə uyğunluğu* ... 5

**1.1. Gürcüstanda daimi yaşamaq hüququ olan şəxslərin hərəkət azadlığının məhdudlaşdırılması** 5

**1.2. Belə adlanan, məcburi peyvənd** ... 7

**1.3. Maska taxmaq məcburiyyətinin yetkinlik yaşına çatmayanlara və əlillərə təsiri** ... 8

*2. Qadınların bərabərliyi* ... 8

**2.1. Cinsi qısnama** ... 9

**2.1.1. Daxili İşlər Nazirliyinin cavabı** ... 10

**2.2. İdmançı qadınların hüquqları** ... 11

**2.3. Analıq məzuniyyətinə görə ödəniş, analıq məzuniyyəti və kişilərin uşağa qulluq üzrə məzuniyyəti** ... 12

*3. Əlillərin bərabərliyi* ... 14

**3.1. Əlilliyin tibbi modelindən irəli gələn problemlər** ... 14

**3.2. Hamilə qadınların hüquqları kontekstində çatım (əlçatanlıq) problemi** ... 15

**3.3. Uşağın təhsil prosesində ağlabatan uyğunlaşması** ... 16

*4. Çoxluq təşkil etməyən dini mənsubiyyəti olan məhkumların dini ehtiyacları* ... 17

*5. Çoxluq təşkil etməyən etnik qrupların nümayəndələrinin hüquq bərabərliyi* ... 20

**5.1. Dövlət xidmətlərinə çıxış** ... 20

**5.2. Mesxeti türk icmasının üzləşdiyi problemlər** ... 26

**5.3. Dmanisi münaqişəsi** ... 28

*6. LGBT + icma bərabərliyi* ... 29

**6.1. İfadə və toplaşmaq azadlığı kontekstində LGBT+ icmasının bərabərliyi** ... 29

**6.2. LGBT+ icması üzvlərinin iqtisadi və sosial hüquqlarının həyata keçirilməsi** ... 34

*7. Sosial müdafiə sistemində qeyri-bərabərlik* ... 35

**7.1. Bank xidmətlərində ayrı-seçkilik** ... 35

**7.2. Sosial yardım və pensiyaların yenidən hesablanması sistemi** ... 37

*8. Əmək münasibətlərində və fəaliyyətin həyata keçiriləsində ayrı-seçkilik* ... 37

**8.1. Seçkiqabağı dövrdə əmək münasibətlərində siyasi zəmində ayrı-seçkilik** ... 38

**8.2. Riskli fəaliyyət sahələrində ayrı-seçkilik** ... 39

**8.3. Əmək Müfəttişliyinin iş yerində ayrı-seçkiliyin aradan qaldırılması üzrə mandatı** ... 40

**8.4. Tənqidi media nümayəndələrinin fəaliyyətinin məhdudlaşdırılması** ... 42

*9. Ayrı-seçkiliyin təşviq edilməsi* ... 43

**9.1. Gender ayrı-seçkiliyinin təşviq edilməsi** ... 43

**9.2. Etnik və irqi ayrı-seçkiliyin təşviq edilməsi** ... 46

**9.3. Müəyyən əlamətlərə görə ayrı-seçkiliyin təşviq edilməsi** ... 47

*10. İddia edilən nifrət cinayətlərinin araşdırılmasında çətinliklər ...... 48*
*11. Xalq Müdafiəçisinin bərabərlik hüququnun müdafiəsi sahəsində fəaliyyəti...... 49*
**11.1. İşlərin idarə edilməsi ...... 50**
**11.2. Təhsil sahəsində fəaliyyət ...... 53**
*12. Nəticə ...... 54*
*Tövsiyələr ...... 54*

## Giriş

2021-ci ildə bərabərlik baxımından vəziyyət hələ də kritik olaraq qalıb. Təəssüf ki, bu il də qadınların, əlilliyi olan şəxslərin, LGBT+ icmasının üzvlərinin və ya çoxluq təşkil etməyən dini və etnik qrupların üzvlərinin hüquqi statusu yaxşılaşmayıb.

Xalq müdafiəçisinin dövlətin bərabərlik siyasətinin müəyyən edilməsi ilə bağlı tövsiyəsinin və ya bərabərliyi dəstəkləyən bəyanatlar verməsinin bu hesabat dövründə aidiyyəti qurumlarla paylaşılmamasından əlavə, qərar qəbul edən şəxslərin daha sərt bəyanatlarla çıxış etməsi müşahidə olunmuşdur.

Xüsusilə narahatedici məsələ, Tiflis Qürur Həftəsi zamanı baş verən hadisələr olmuşdur. Belə ki, bu zaman ifrat sağçı qrupların liderləri və digər üzvləri birbaşa və açıq şəkildə LGBT+ icmasının üzvlərinə və onlara dəstək verənlərə qarşı zorakılığa çağırışlar etmişlər. İyulun 5-də, Ləyaqət Yürüşünün keçirildiyi gündə bu zorakı qrupların jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı törətdikləri genişmiqyaslı hücumun qarşısı hüquq-mühafizə orqanları tərəfindən alınmasına baxmayaraq, nəticədə bir neçə nəfər fiziki cəhətdən ağır xəsarət almışdı. Zorakı qrupların açıq aqressiyasına paralel olaraq, Gürcüstanın baş naziri İrakli Qaribaşvili "Ləyaqət yürüşünü" vətəndaş qarşıdurmasının səbəbi kimi səciyyələndirərək Qürurun arxasında "revanşist və radikal" siyasi qüvvələrin dayandığını qeyd edib.[1] Bundan əlavə, Baş nazir birbaşa olaraq "Ləyaqət yürüşünün" keçirilməsini məqsədəuyğun hesab etmədiyini və yürüşün Rustaveli prospektində keçirilməməli olduğunu bildirib, belə ki, bu, vəziyyətin xüsusilə gərginləşməsinə səbəb olub.

Təəssüf ki, Xalq Müdafiəçisinin Gürcüstan Baş Prokurorluğuna ən azı iki şəxsə qarşı cinayət işi açmaq üçün müvafiq sübutların olması barədə əsaslandırılmış mövqe ifadə etməsinə[2] və həmin sübutların ən azı iki nəfəri sosial zorakılığa çağırışa görə cinayət məsuliyyətinə cəlb etmək üçün yetərli səviyyəyə çatmasına baxmayaraq, heç bir araşdırma başladılmayıb.

Bu ilin birinci yarısında regionlarda dini və etnik zəmində olduğu ehtimal edilən münaqişəli vəziyyət yaranıb. Çoxatauri bölgəsinin Buknari kəndində yerli xristian və müsəlman icmaları arasında dini toqquşmaların olduğu barədə məlumatlar verilib. Eyni zamanda, Dmanisidə yaşayan gürcü və azərbaycandilli əhali arasında etnik zəmində olduğu ehtimal olunan münaqişə baş verib. Hüquq-mühafizə orqanları bu hadisələrə qarşı effektiv tədbir görə biməyiblər - münaqişə tərəfləri vaxtında reaksiya verərək vəziyyəti sakitləşdirə bilməyən polisin iştirakına baxmayaraq, bir-birinə fiziki təzyiq göstəriblər.

Bundan əlavə, seçkiqabağı dövrdə yerli özünüidarəetmə orqanları , dövlət məktəbləri və uşaq bağçalarının əməkdaşlarının əmək hüquqlarının məhdudlaşdırılması ilə bağlı son dərəcə problemli olan onlarla hal (iddia edildiyinə görə, əsasən siyasi baxışlara görə) baş verib. Bu hüquq pozuntuları daha çox

---

[1] Həmçinin bax. İyulun 5-də saat 11:00-da Baş nazir İrakli Qaribaşvili bəyanatla çıxış edib: "Bugünkü mitinqin təşkilatçılarının arxasında hələ də revanşist, radikal qruplar, xüsusən də Saakaşvilinin başçılıq etdiyi radikal müxalifət dayanır. Mən bütün məsuliyyətim ilə bəyan edirəm ki, yürüşü və bu mitinqləri məhz onlar təşkil edirlər. Təbii ki, onların məqsədi ölkəyə vətəndaş iğtişaşları və xaos gətirməkdir. Bu, təbii ki, baş verməyəcək və biz buna imkan verməyəcəyik."Xalqımıza gəldikdə, xalqımız necə istəyirsə, ölkəmizdəs hər şey elə də olacaq"; "Bugünkü mitinqdə vətəndaş qarşıdurmasının meydana gəlməsi təhlükəsi var. Bildiyiniz kimi, bu mitinqin keçirilməsi əhalinin mütləq əksəriyyəti üçün qəbuledilməzdir. Ona görə də hesab edirəm ki, bu aksiya Rustaveli prospektində keçirilməməlidir." https://cutt.ly/zTGKbeM; https://cutt.ly/3TGLdFw

[2] Xalq Müdafiəçisinin Gürcüstan Prokurorluğuna təqdim etdiyi 3 sentyabr 2021-ci il tarixli təkliflər bu ünvanda mövcuddur: https://bit.ly/326XK45

ayrı-seçkilik əsasları ilə əmək müqaviləsinin müddətinin uzadılmasından imtina, müqaviləyə vaxtından əvvəl xitam verilməsi, könüllü olaraq işdən çıxma və işdən çıxarılma ilə bağlı hallarda özünü büruzə verib. Ərizəçilər qeyri-bərabər rəftarı keçmiş Baş nazir Giorgi Qaxariyanın partiya üzvlərinin və ya onların ailə üzvləri ilə qohumluq, dostluq və ya digər yaxın münasibətləri ilə əlaqələndiriblər. Onlardan bəziləri sosial şəbəkələrdə partiya liderinə dəstək və ya rəğbət ifadə edən yazıların və ya şərhlərin yerləşdirilməsi/təsdiqlənməsi ilə bağlıdır.

Ümumilikdə, 2021-ci ildə Xalq Müdafiəçisi 161 iddia edilən ayrı-seçkilik işini araşdırıb, onların əksəriyyəti - 17%-i siyasi baxışlara görə iddia edilən ayrı-seçkilik halları olub. Cinsi zəmində iddia edilən ayrı-seçkilik, o cümlədən cinsi qısnama faktları bu il də aktuallığını qoruyub saxlayıb və iddiaların 16%-ni təşkil edib. Fərqli rəy və əlillik işlərin 11-11% -ində aşkar edilmişdir. Müraciət edənlərin 7%-i cinsi oriyentasiya və/yaxud gender kimliyi ilə bağlı məsələləri mübahisələndirib. İşlərin 6%-i vətəndaşlıqla bağlı bərabərsizliklə, 4%-i dini baxışlarına görə, 3%-i isə etnik mənsubiyyətə görə bərabərsizliklə bağlı olub. Yaşla bağlı bərabərsizlik iddiaları bu il 3%-ə düşüb. 2021-ci ildə icraatda olan işlərin ən böyük hissəsi - 22% - hələ də digər əsaslarla iddia edilən ayrı-seçkilik halları ilə bağlı olub.

## 1. Yeni Koronavirusla bağlı tətbiq edilən qaydaların bərabərlik prinsipinə uyğunluğu

Yeni koronavirus pandemiyası zamanı bərabərlik hüquqları baxımından 2020-ci ildə meydana çıxmış problemlərə əlavə olaraq 2021-ci ildə yeni çətinliklər də yaradıb.

Cari hesabat dövründə müşahidə olunub ki, Gürcüstanın ölkə ərazisinə daxil olmaq siyasəti bərabərlik hüququna tam uyğun gəlmir. Daha dəqiq desək, pandemiya dövrü ərzində Gürcüstanda daimi yaşayış hüququ olan bəzi şəxslərin ölkəyə girişi məhdudlaşdırılıb ki, bu da Gürcüstanın ayrı-seçkiliyə qarşı qanunvericiliyinə ziddir. Qeyd etmək lazımdır ki, ictimaiyyət həssas qrupların ehtiyacları barədə kifayət qədər məlumatlı olmadığına görə, həmin qruplar problemlərlə üzləşiblər. Məsələn, müəyyən qrup əlillər, eləcə də uşaqlar maska üzrlü səbəblərə görə taxa bilmədikləri halda, bəzən onlardan əsassız olaraq maska taxmaları tələb olunub.

Hesabat ilində yeni koronavirusa qarşı peyvənd olunması məsələsinin insan hüquqları ilə əlaqəsi xüsusi əhəmiyyət kəsb etmişdir. Cəmiyyətdə iş yerlərində, xidmət, səhiyyə, təhsil və digər obyektlərdə peyvənd sənədinin təqdim edilməsi öhdəliyinin ayrı-seçkilik yaradıb-yaratmaması ilə bağlı suallar yaranıb. Gürcüstanın Xalq Müdafiəçisi bu suallara cavab olaraq aydınlaşdırıb ki, peyvənd olunmuş və peyvənd olunmamış şəxslərə qarşı məhdudlaşdırıcı və ya həvəsləndirici tədbirlərin tətbiqi, əgər müvafiq əsaslar mövcuddursa, ayrı-seçkilik təşkil etmir.

### 1.1. Gürcüstanda daimi yaşamaq hüququ olan şəxslərin hərəkət azadlığının məhdudlaşdırılması

Cari hesabat dövründə yeni koronavirus pandemiyası ilə əlaqədar Gürcüstan ərazisinə giriş məhdudlaşdırılıb. Hökumətin müəyyən etdiyi qaydalar tez-tez dəyişdirilmiş, lakin hesabat ili ərzində Gürcüstanda daimi yaşamaq hüququ olan şəxslərin, öz statuslarına görə, ölkəyə girişinə qadağan qoyulması müşahidə edilmişdir.

Qeyd edək ki, daimi yaşayış hüququ olan müəyyən kateqoriyalı şəxslər sərhədi yaşayış statuslarını əsas gətirərək deyil, alternativ yollarla keçə biliblər:[3] Gürcüstan vətəndaşının ailə üzvləri (ər-arvad, yetkinlik yaşına çatmayan uşaq) olduqlarına görə; Gürcüstana daxil olmaq üçün müxtəlif rejimlərdən istifadə edərək;[4] sərhəddə Covid əleyhinə peyvəndin hər hansı növünün tam kursunun qəbulunu təsdiq edən sənəd təqdim etməklə. Bundan əlavə, Hökumət vətəndaşlarının hava, quru və dəniz yolu ilə Gürcüstana daxil ola biləcəyi konkret ölkələrin kiçik siyahısını müəyyənləşdirmişdi.

Nəticədə, daimi yaşamaq hüququ olan əhəmiyyətli sayda insan Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş prosedurlardan keçərək Gürcüstan ərazisinə daxil ola bilmişdir. Onu da qeyd etmək lazımdır ki, il ərzində müxtəlif rejimlərdən istifadə etməklə Gürcüstan ərazisinə daxil olmaq imkanları/yollarının sayı artıb, buna görə də daimi yaşayış hüququ olan şəxslərin vəziyyəti getdikcə yaxşılaşıb. Buna baxmayaraq, Gürcüstana giriş rejimləri ilə ölkədə daimi yaşayış hüququ əldə etmək üçün tətbiq edilən ilkin şərtlər arasında qarşılıqlı əlaqə aydın göstərdi ki, Gürcüstanda yaşayan şəxslərin bir hissəsinin (nəzəri olaraq) ölkəyə daxil olmasına icazə verilməyib. Belə yanaşma nəticəsində ölkədə daimi yaşamaq hüququ olan şəxslərin hərəkət azadlığı məhdudlaşdırılıb, üstəlik, onlar Gürcüstan Konstitusiyasında nəzərdə tutulmuş və təkcə Gürcüstan vətəndaşlarına şamil edilməyən hüquqlardan istifadə edə bilməyiblər.

Bu hesabatda Gürcüstan ərazisinə girişə qoyulan məhdudiyyətlərin bərabərlik hüququnu pozub-pozmadığı qiymətləndirilir.[5] Xalq Müdafiəçisinin məsələ ilə bağlı araşdırması müəyyən etdi ki, bu qrupa tətbiq olunan qaydalar Gürcüstan Konstitusiyası və ayrı-seçkiliyə qarşı qanunvericilikdə nəzərdə tutulmuş bərabərlik hüququna ziddir, çünki bu qrupla daimi yaşayış ölkəsi olan Gürcüstan arasında uzunmüddətli və yaxın sosial, iqtisadi, hüquqi və ya digər bağlar mövcud idi. Onlar statuslarına görə (ölkədə daimi yaşamaq hüququna malik olduqlarına) Gürcüstana daxil ola bilməli idilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Xalq Müdafiəçisi daimi yaşayış hüququ ilə bağlı ayrı-seçkiliyin aradan qaldırılması məqsədi ilə Gürcüstan hökumətinə tövsiyə ünvanlamışdır.[6] Tövsiyədə qeyd olunur ki, daimi yaşayış hüququ olan şəxslərin Gürcüstana daxil olma siyasəti elə dəyişdirilməlidir ki, bu şəxslər ölkəyə maneəsiz daxil ola bilsinlər. Gürcüstan hökumətinin administrasiyasından Gürcüstanın Xalq Müdafiəçisinə verilən məlumata görə, bu tövsiyənin yerinə yetirilməsi üçün yekun tədbirlər hələ ki, görülməyib.

---

[3] Ölkəyə giriş yolları barədə məlumat məsələnin araşdırıldığı dövr üçün (23 iyul 2021-ci il) qüvvədə olan qaydalara uyğun olaraq verilir.
[4] Xüsusi giriş rejimi aşağıdakılara tətbiq edilib: Gürcüstanda səfərdə olan rəsmi nümayəndə heyətlərinin üzvlərinə, habelə Gürcüstan hökuməti və prezidentinin nümayəndə heyətlərinin üzvlərinə; Gürcüstanı iş / əmək fəaliyyəti ilə bağlı ziyarət edən şəxslərə; Gürcüstanın Müdafiə Nazirliyi sistemində planlaşdırılan beynəlxalq hərbi təlimlərdə və digər təlimlərdə iştirak edən xarici hərbi qulluqçulara/nümayəndələrə; digər ölkələrdən Gürcüstanda məsafədən biznes fəaliyyəti ilə məşğul olan/işləyən xarici ziyarətçilərə; xarici tələbələrə. Bax. Gürcüstan hökumətinin "Təcrid və karantin qaydalarının təsdiq edilməsi haqqında" 322 saylı qərarı, 111-115-ci maddələr.
[5] 2020-ci ildə bu məsələni fərqli şəkildə qiymətləndirmək lazımdır. Bax. Gürcüstanın Xalq Müdafiəçisinin ayrı-seçkiliklə mübarizə, onun qarşısının alınması və bərabərlik vəziyyəti 2020, 7-8 haqqında xüsusi hesabatı: https://bit.ly/3IeAr8G
[6] Gürcüstan Xalq Müdafiəçisinin Gürcüstan hökumətinə 23 iyul 2021-ci il tarixli tövsiyəsi, https://bit.ly/3EG0TWR ünvanında mövcuddur.

### 1.2. Belə adlanan, məcburi peyvənd

Cari hesabat dövründə müzakirə olunan məsələlərdən biri də, yeni Koronavirus əleyhinə peyvənd statusunun bərabərlik hüququna təsiri olub. Xüsusilə, bunun insan hüquqlarını pozub-pozmaması, əmək münasibətlərində, xidmət, səhiyyə, təhsil və ya digər müəssisələrdə mənfi test/peyvənd sənədi təqdim etmək öhdəliyinin ayrı-seçkilik olub-olmaması məsələsi müzakirə edilmişdir. Məsələyə xüsusi marağın olması Gürcüstanın Xalq Müdafiəçisinə gələn müraciətlərin sayının artmasında də öz əksini tapıb.

Xalq Müdafiəçisi, ən son beynəlxalq təcrübəyə və milli qanunvericiliyin təhlilinə əsaslanaraq hesab edir ki, səhiyyə, sosial xidmətlər, təhsil, dövlət qulluğu kimi ictimai həyatın müəyyən sahələrində Koronavirusa qarşı peyvənd sənədinin təqdim edilməsi öhdəliyi ayrı-seçkilik və ya hüquqları pozan digər təcrübə xarakteri daşımır.

İşəgötürənin işçinin peyvənd statusu ilə bağlı birbaşa məlumat tələb etməsinə gəlincə, dövlət müdafiəçisi hesab edir ki, ölkədəki ağır epidemioloji vəziyyətlə əlaqədar özəl şirkətlərin işçilər/istehlakçılar üçün sağlam və həyat üçün təhlükəsiz [iş] mühitin yaradılmasına diqqət yetirməsi vacibdir. Xalq Müdafiəçisinin fikrincə, bu qanuni məqsədə nail olmaq üçün peyvənd olunmuş və peyvənd olunmamış şəxslər qarşı tətbiq edilən müəyyən məhdudlaşdırıcı və ya həvəsləndirici tədbirlər lazımi qaydada əsaslandırılarsa, ayrı-seçkilik yaratmayacaqdır. Müvafiq olaraq, işəgötürənlər, eləcə də xidmət təminatçıları işçidən və ya istehlakçıdan tam peyvənd olunduqlarına dair sübut və ya sistematik olaraq mənfi test nəticəsi təqdim etməyi tələb etmək hüququna malikdirlər. Bu qaydalar istisnaları (məsələn, peyvəndin məqsədəuyğunluğu haqqında tibbi arayış), eləcə də ağlabatan adaptasiya tədbirlərini nəzərdə tutmalıdır. Onu da qeyd edək ki, epidemioloji vəziyyətin dəyişməsi ilə qəbul edilmiş qaydalara yenidən baxılması vacibdir.

Bundan əlavə, Gürcüstanın Xalq Müdafiəçisi açıqlayıb ki, qaydalara əsasən müəyyən ictimai yerlərə peyvənd olunanların buraxılmasını, peyvənd olunmayanların isə mənfi test nəticəsi və / və ya xəstəliyi keçirməsi ilə bağlı sənədi təqdim etməklə buraxılmasını ayrı-seçkilik hesab etmir.

Nəticədə, İctimai Müdafiəçinin qiymətləndirməsi və beynəlxalq təcrübəyə əsasən, peyvənd olunmaq öhdəliyi fərdlərin hüquqlarına müdaxilə edə bilsə də, belə müdaxilə ictimai sağlamlığın və insan həyatının qorunmasının qanuni məqsədinə xidmət etdikdə, əsaslı hesab edilir. Mövcud vəziyyəti nəzərə alaraq, peyvənd təkcə fərdi hüquq kimi deyil, həm də əhalinin sağlamlığının qorunması və əhalinin həyatını xilas etmək üçün zəruri olan kollektiv məsuliyyət kimi şərh edilməlidir.

Qeyd edildiyi kimi, Gürcüstanın Xalq Müdafiəçisi proses zamanı bu məsələlərlə bağlı bir sıra şikayətlər almışdır, lakin heç bir halda peyvənd statusu ilə bağlı ayrı-seçkilik faktı müəyyən edilməyib. Ümumilikdə ictimai müzakirələrdə məsələnin aktuallığını nəzərə alaraq, Gürcüstanın Xalq Müdafiəçisi 25 avqust 2021-ci il tarixində müvafiq ictimai bəyanatla çıxış etmiş,[7] 26 avqust 2021-ci il tarixində isə

[7] "Peyvənd olunmuş və peyvənd olunmayan şəxslər üçün məhdudlaşdırıcı və ya həvəsləndirici tədbirlər ayrı-seçkilik təşkil etmir" bəyanatını buradan əldə edə bilərsiniz: https://bit.ly/31r1mxb

Müdafiəçinin Aparatında iş yerində təhlükəsiz iş mühiti yaradılmasının zəruriliyi ilə bağlı müvafiq qayda qəbul etmişdir[8].

### 1.3. Maska taxmaq məcburiyyətinin yetkinlik yaşına çatmayanlara və əlillərə təsiri

Hesabat dövründə Gürcüstan Xalq Müdafiəçisinin Aparatı yeni koronavirusun yayılmasının qarşısını almaq üçün tətbiq edilən maska taxma qaydasının həssas qruplar üçün təcrübədə bir sıra çətinliklər yaratdığını aşkar edən işlərə baxıb.

Gürcüstanın Xalq Müdafiəçisinin Aparatına şikayət daxil olub ki, təşkilatlardan birində mövcud olan ümumi qayda əlilliyi olan uşağa və onu müşayiət edən şəxsə münasibətdə ayrı-seçkilik yaradıb. Belə ki, xidmət göstərən özəl şirkətdə belə bir qayda var idi ki, bütün müştərilər şirkətə daxil olarkən maska taxmalıdırlar. Müştərilərdən biri bu şirkətin şöbələrindən birinə üç yaşlı autizm spektri olan uşaqla birlikdə gəlib. Valideyn izah edib ki, uşaq autizm spektrindədir və özünə zərər verməyəcək. Bu məlumatı təşkilatın əməkdaşlarına verməsinə baxmayaraq, ərizəçinin oğlu şöbəyə buraxılmayıb. Təşkilat Xalq Müdafiəçisi tərəfindən iş araşdırılan müddətdə ayrı-seçkilik yaradan qaydanı dəyişmiş və müvafiq şəxslərə maska taxmadan da şirkət daxilində hərəkət etməyə icazə vermişdir ki, bu da öz növbəsində Gürcüstan qanunvericiliyinə[9] uyğun idi.

Bundan əlavə, Gürcüstan Xalq Müdafiəçisi tərəfindən baxılan digər şikayətdə psixi pozuntusu olan və buna görə maska taxa bilməyən şəxsin maska taxma qaydalarını pozduğuna görə cərimələnməsi bildirilib. Gürcüstan Daxili İşlər Nazirliyinin İctimai Müdafiəçiyə ünvanladığı məktubdan məlum olub kimi, bu şəxslə bağlı tərtib edilən protokol ləğv edilib.

Beləliklə, bu hallar ictimaiyyətin həssas qrupların ehtiyacları barədə məlumatlılığının artırılmasının zəruriliyini göz önünə çəkib. Öz növbəsində, özəl şirkətlərin iş yerində təhlükəsiz iş şəraitinin yaradılması ilə bağlı təşəbbüsləri olduqca böyük əhəmiyyət kəsb edir, lakin onların Gürcüstan qanunvericiliyinə uyğun olaraq, bərabərlik prinsipi əsasında planlaşdırılması və həyata keçirilməsi zəruridir.

## 2. Qadınların bərabərliyi

Qadınların bərabərlik statusu baxımından, cinsi qısnama faktları, xüsusilə iş yerlərində baş verənlər, bu il də problem yaratmağa davam edib. Xalq Müdafiəçisinin təcrübəsindən göründüyü kimi, cinsi qısnamanı qadağan edən qanunvericilik və müvafiq mexanizmlər barədə məlumatlılıq artıb ki, bu da müxtəlif sahələrdə çalışan qadınların sayının artmasında özünü göstərir. Bundan əlavə, bu il Xalq Müdafiəçisinə ilk dəfə peşəkar qadın futbolçular müraciət edib ki, bu da onların hüquqi statusunun bərabərlik prinsipinə uyğunluğu məsələsini müzakirəyə çıxarmağa imkan verib.

Eyni zamanda, 2020-ci ildə əmək qanunvericiliyinə edilən dəyişikliklərin bərabərlik hüququna təsirini yoxlamaq üçün bu hesabat dövründə Xalq Müdafiəçisi analıq məzuniyyəti məsələsini təhlil etmişdir.

---

[8] "Xalq Müdafiəçisi Aparatının əməkdaşları iş yerində Covid sənədi təqdim etməlidirlər" bəyanatı: https://bit.ly/326XK45

[9] Gürcüstan hökumətinin "Maska taxılması qaydasının təsdiq edilməsi haqqında" 368 saylı qərarı.

## 2.1. Cinsi qısnama

Xalq müdafiəçisi cari hesabat ilində cinsi qısnama faktlarının fəal şəkildə öyrənilməsini və qarşısının alınması istiqamətində işləri davam etdirib. 2019-cu ildə qanunvericiliyə edilən və cinsi qısnama davranışının əvvəlcədən görülə bilən elementlərini və hüquqi müdafiə mexanizmlərini müəyyən edən əhəmiyyətli dəyişikliklər iddia edilən qurbanlar üçün daha çox qorunan məkan yaratmışdır. Maraqlıdır ki, Xalq Müdafiəçisinin cinsi qısnama qurbanlarının müdafiəsi ilə bağlı müsbət təcrübəsi quruma inamı artırmış, bu da öz növbəsində müraciətlərin sayının artmasına səbəb olmuşdur. Qeyd edək ki, Gürcüstan Xalq Müdafiəçisi və BMT Qadınlar Təşkilatının birgə səyləri ilə "Cinsi qısnamanın qarşısının alınması" üzrə elektron kursu hazırlanıb. Elektron kursun yaradılmasında məqsəd ictimai yerlərdə və iş yerlərində cinsi qısnama ilə bağlı maarifləndirmə işi aparmaqdan ibarətdir. O, həmçinin maraqlı tərəflərə bütün dünyada cinsi qısnamanın qarşısını almaq üçün istifadə edilən insan hüquqlarının hüquqi bazası ilə tanış olmaq imkanı verir. Bu kurs Xalq Müdafiəçisinin rəsmi internet səhifəsində yerləşdirilib və maraqlanan hər kəs üçün açıqdır.[10]

Cari hesabat dövründə İctimai Müdafiəçi tərəfindən araşdırılan işlər arasında əmək münasibətləri əsnasında və sosial şəbəkələrdən istifadə zamanı meydana çıxan cinsi qısnama halları ilə bağlı işlər də olmuşdur.[11] Qisnama tətbiq edən şəxsin davranışı şifahi və fiziki cinsi hərəkətlərdə - şəxsi suallarin verilməsi, telefon nömrəsi istəmək, cinsi məzmunlu təhqiramiz mesajlar göndərmək, ərizəçinin cinsi oriyentasiyasını başqa bir iş yoldaşı ilə qiymətləndirmək, məcburi öpüşməyə cəhd etmək, cinsi əlaqə təklif etmək və s. ifadə olunmuşdur. Qeyd edək ki, işlərə baxarkən Xalq Müdafiəçisi yalnız qisnama törədənin davranışını deyil, həm də işəgötürənin iş yerində cinsi qısnama faktına reaksiyasını qiymətləndirib.

Cinsi qısnamanın xüsusilə həssas xarakterini və onun qurban və ya iş mühiti üçün potensial mənfi nəticələrini nəzərə alaraq, son vaxtlar ərzində getdikcə daha çox dövlət və özəl təşkilatı cinsi qısnamanı qadağan etmək və ona cavab vermək üçün daxili qaydalar işləyib hazırlamış və qəbul etmişdir. Bu mexanizm, bir tərəfdən, işəgötürənin potensial qisnamaya məruz qalan şəxsə cinsi qısnamaya yol verilməyəcəyi barədə bəyanatıdır, digər tərəfdən isə qurbana, yəni işçiyə təsirli və etibarlı prosedur təklif edir. Cinsi qısnamaya cavab olaraq daxili mexanizmin tətbiqi unikal bir müsbət addımdır, lakin eyni zamanda, onun praktikada effektiv şəkildə həyata keçirilməsi də olduqca vacibdir. Məsələn, dövlət qulluğunda çalışan işçiyə qarşı cinsi təcavüz iddiası ilə bağlı aparılan araşdırma zamanı məlum olub ki, qurum hadisə ilə bağlı hərtərəfli məlumat əldə etmək üçün kifayət qədər tədbirlər görməyib. Müvafiq olaraq, daxili qaydaların mövcudluğuna baxmayaraq, ərizəçinin iddia edilən cinsi qısnamaya məruz qalması ilə bağlı heç bir təsirli cavab tədbiri görülməmişdir.

Cari hesabat dövründə LEPL-in Əmək Müfəttişliyi Xidməti ilk dəfə olaraq Gürcüstanın Xalq Müdafiəçisinə özəl şirkətlərdən birinin əməkdaşının işəgötürən tərəfindən cinsi qısnamaya məruz qalması faktı ilə bağlı müraciətini yönləndirib. Araşdırma zamanı məlum olub ki, şirkət işçinin hüquqlarının səmərəli müdafiəsini təmin edə bilməyib. Xalq Müdafiəçisi, bir tərəfdən, öz tövsiyəsi ilə qısnama törədəni gələcəkdə, iş yerində və ya başqa sahədə cinsi qısnamaya əl atmamağa, ayrı-ayrı şəxslər üçün təhqiramiz, alçaldıcı və/

[10] Cinsi qısnama ilə bağlı onlayn kurs ilə https://bit.ly/3dkc0se ünvanına daxil olaraq tanış ola bilərsiniz.

[11] Gürcüstanın Xalq Müdafiəçisinin 2 fevral 2021-ci il tarixli tövsiyəsi: https://bit.ly/3lBaiYb

və ya qeyri-münasib mühit yaratmamağa çağırmış, digər tərəfdən isə, şirkətdən belə halları effektiv şəkildə araşdırmağı və cinsi qısnama ilə bağlı daxili siyasət sənədini hazırlamaq və maarifləndirməni artırmaq da daxil olmaqla, fəal addımlar atmağı tələb etmişdir.[12]

Qeyd edək ki, cinsi qısnama baxımından həssas qruplardan birini nikahda olmayan qadınlar (subay, boşanmış, ayrılmış, dul) və tənha analar təşkil edir. Bu, adətən, onunla bağlı olur ki, qısnamanı törədən şəxs bu və ya digər xarakterli cinsi davranışın əri olan qadından daha çox subay qadın üçün məqbul olacağına dair təsəvvürə malik olur. Belə bir hal hesabat dövründə Xalq Müdafiəçisi tərəfindən baxılan işlərdən birində müəyyən edilib.[13] Xalq Müdafiəçisinə məlum olub ki, aliment işi ilə bağlı sosial şəbəkədə vəkil axtarışı aparan tənha ana ilə bir kişi ünsiyyətə daxil olub. Ünsiyyət zamanı cavabdeh ərizəçiyə şəxsi suallar verib, qadının şəxsi həyatı ilə bağlı şərhlər verib və öz təsirini sübut etmək üçün özünün sosial çevrəsini və yüksək gəlirli olmasını qeyd edib. Ərizəçi cavabdehin davranışından şikayət edərkən o, diqqətini özünün ailə vəziyyətinə yönəltmiş və qadının ailə vəziyyətini mənfi və təhqiredici kontekstdə təqdim etmişdi.

### 2.1.1. Daxili İşlər Nazirliyinin cavabı

2019-cu ildə cinsi qısnama haqqında qanuna edilən dəyişikliyə əsasən, qanunverici orqan ictimai yerlərdə cinsi qısnama törətmənin Gürcüstan İnzibati Xətalar Məcəlləsinin 166 maddəsinə əsasən inzibati xəta, belə qısnamaya məruz qalanların isə ictimai yerlərdə cinsi qisnama qurbanı olduqlarını bildirib. Daxili İşlər Nazirliyinin əməkdaşları da öz növbəsində İnzibati Xətalar Məcəlləsinin 166[1]-ci maddəsinin tələblərini təcrübədə səmərəli şəkildə həyata keçirməyə görə məsuliyyət daşıyırlar.

Hesabat dövründə baxılan işlərdən birində Daxili İşlər Nazirliyinin əməkdaşı tərəfindən ictimai məkanda törədilməsi iddia edilən cinsi qısnama hərəkəti ilə bağlı nazirliyin reaksiyası problemli olub. İş 2021-ci il aprelin 14-də nazirliyin əməkdaşı tərəfindən saxlanılan qadına qarşı cinsi qısnama tətbiq edilməsi ilə bağlı olub.[14] Daxili İşlər Nazirliyinin reaksiyasının effektivliyini qiymətləndirmək üçün Xalq Müdafiəçisi qurumdan bir neçə dəfə məlumat istəyib. Xalq Müdafiəçisinə hər dəfə bildirilib ki, xidməti yoxlama hələ də davam edir və məsələ ilə bağlı yekun qərar verilməyib. Dövlət Müdafiəçisinə Nazirlikdən yalnız 30 dekabr 2021-ci il tarixində məlumat verilib ki, Dövlət Müfəttişliyi Gürcüstan Cinayət Məcəlləsinin 333-cü maddəsinin 3-cü hissəsinin "B" bəndinə əsasən iddia edilən zorakılıq cinayəti ilə bağlı araşdırmaya başlayıb.

Qeyd etmək lazımdır ki, qurum tərəfindən adekvat cavabın verilməməsi vətəndaşların quruma olan inamına mənfi təsir göstərir. Uzun müddət davam edən təhqiqat prosesləri araşdırmanın effektivliyini və

---

[12] Gürcüstan Xalq Müdafiəçisinin 21 dekabr 2021-ci il tarixli tövsiyəsi ilə bu linkdə tanış olmaq olar https://bit.ly/3sXoqzw

[13] Gürcüstanın İctimai Müdafiəçisinin 2 fevral 2021-ci il tarixli tövsiyəsi: https://bit.ly/3lBaiYb

[14] 14 aprel 2021-ci ildə Daxili İşlər Nazirliyinin binasının arxasındakı dayanacaqda patrul müfəttişi qadının əllərini qandallamaq üçün burub. Nəticədə qadın şiddətli ağrı hiss edib və patrul müfəttişindən qandalları çıxarmasını istəyib. Patrul müfəttişi "Cəzalandırılmısan, əllərin ağrıyırsa, indi səni sakitləşdirərəm" deyə cavab verib, bundan sonra hər iki əlini qadının üzünə doğru uzadaraq onun üzünə yaxınlaşdırıb.

etibarlılığını azaldır. Buna görə də, qurumun hər bir iddia edilən cinsi qısnama hadisəsinin hallarını araşdırmaq və cinayət törədən şəxsə qarşı müvafiq tədbirlər görmək üçün səy göstərməsi vacibdir.

### 2.2. İdmançı qadınların hüquqları

Gürcüstanda qadın idmançıların, o cümlədən futbolçuların üzləşdiyi problemlər çoxşaxəlidir ki, bu da bəzi hallarda gender stereotiplərindən, bəzi hallarda isə qadın futbolunun maliyyə və iqtisadi vəziyyətindən qaynaqlanır. Qadın futbol oyunçuları daim mübahisə edirlər ki, futbol təkcə kişi idmanı deyil. [15] Birbaşa idman kontekstinə aid olan stereotiplərlə yanaşı, qadın oyunçular eyni zamanda qadınlara cəmiyyətdə əsasən/yalnız ailədə qayğı göstərmək rolunun aid edilməsi ilə də mübarizə aparmalı olurlar.

Bu çağırışlara cavab olaraq, Gürcüstan Futbol Federasiyası "Qadınlar və Qızlar Futbolu üzrə Strategiya 2021-2024" adlı sənəd işləyib-hazırlayıb. Bundan əlavə, 2020-ci ildən başlayaraq Qadınlar Liqasının da lisenziyalı liqalar sırasına əlavə edilməsi diqqət çəkir ki, bu da kişi klubları kimi qadın klubları üçün də 2021-ci ildə keçiriləcək Çempionat zamanı tibbi heyətin nəzərdə tutulmasının məcburi hala gəlməsi deməkdir. [16] Buna baxmayaraq, bu tədbirlər qadın futbolçuların sağlamlıq hüquqlarını tam qorumaq üçün kifayət etmir.

2021-ci ildə Gürcüstanın Xalq Müdafiəçisi qadın oyunçuların üzləşdiyi müəyyən problemləri qiymətləndirib. Qadın futbolçuların hüquqi statusunun təhlili zamanı məlum olub ki, Gürcüstan Futbol Federasiyası tərəfindən hazırlanmış qaydalar qadın futbolçuların cinsi və reproduktiv hüquqlarının, habelə analıq hüququnun adekvat müdafiəsini təmin edə bilməyib ki, bu da ayrı-seçkilik əleyhinə qanunvericiliyə ziddir. Beynəlxalq təcrübənin öyrənilməsi və yerli həkimlərlə məsləhətləşmənin nəticəsi olaraq, Gürcüstanın Xalq Müdafiəçisi Gürcüstan Futbol Federasiyasını ünvanlayan müvafiq tövsiyələr hazırlayıb.

Xalq müdafiəçisinin Gürcüstan Futbol Federasiyasına verdiyi tövsiyə iki əsas istiqaməti əhatə edir. Birinci tövsiyəyə əsasən, Gürcüstan Futbol Federasiyasının lisenziyalı komandaların həkimləri üçün nəzərdə tutulan məcburi təlimlər zamanı qadın futbolçuların cinsi və reproduktiv sağlamlıq problemlərini nəzərə alması vacibdir; qadın oyunçuların cinsi və reproduktiv sağlamlığı ilə bağlı növbəti dövr üçün qadın oyunçuların hamiləliyi və fiziki fəaliyyəti ilə bağlı rəhbər sənəd (standartlar)işlənib hazırlanmalıdır. İkinci tövsiyəyə görə, qadın futbolçuların əmək hüquqlarını reallaşdırmaq üçün Gürcüstan Futbol Federasiyası tərəfindən Beynəlxalq Futbol Federasiyasının qaydalarına əməl edilməsi vacibdir. Qaydalar hamiləlik, doğuş və uşağa qulluq zamanı qadın futbolçuların hüquqlarının qorunmasına və onların pozulmasına görə idman sanksiyalarının tətbiqinə aiddir. [17]

---

[15] Qadın futbolunun inkişaf strategiyası hazırlanıb | Oyunçuların mövcud olan gözləntiləri nədir: https://bit.ly/3diEkeG; Gürcüstanın Bədən Tərbiyəsi və İdman haqqında Qanun layihəsinin Gender Təsirinin Təhlili, 68, aşağıdakı ünvanda mövcuddur: https://bit.ly/332uqfi

[16] Klubların Lisenziyalaşdırma Qaydaları 2021, Gürcüstan Futbol Federasiyası, Maddə 32, Mövcuddur: https://bit.ly/3pnBAlM

[17] Gürcüstanın Xalq Müdafiəçisinin 21 dekabr 2021-ci il tarixli Gürcüstan Futbol Federasiyasına tövsiyəsini buradan əldə edə bilərsiniz: https://bit.ly/3HAmXmI

Qeyd edək ki, Gürcüstan Futbol Federasiyası daxil olan tövsiyələri nəzərə almağa hazır olduğunu bildirib. Qadın futbolçuların cinsi və reproduktiv sağlamlıq hüquqlarını, eləcə də analıq hüquqlarını qorumaq məqsədilə Gürcüstanın Xalq Müdafiəçisinin Aparatı Gürcüstan Futbol Federasiyası ilə əməkdaşlığı davam etdirir.

### 2.3. Analıq məzuniyyətinə görə ödəniş, analıq məzuniyyəti və kişilərin uşağa qulluq üzrə məzuniyyəti

Gürcüstanın Xalq Müdafiəçisi bərabərliyin vəziyyəti ilə bağlı keçən ilki hesabatında analıq və uşağa qulluq məzuniyyəti ilə bağlı qaydalarda müsbət dəyişiklikləri, eləcə də həlli mümkün olmayan problemləri qeyd edib.[18] Cari hesabat dövründə Gürcüstan Əmək Məcəlləsinin təsiri altına düşən işçilər üçün belə məzuniyyətə görə kifayət qədər ödənişin olmaması kimi mühüm problemlər qalmaqdadır. Bundan əlavə, qeyri-bərabərlik problemini bir tərəfdən orqanik qanun olan, Gürcüstan Əmək Məcəlləsi, digər tərəfdən isə Gürcüstanın Dövlət Qulluğu haqqında Qanununda fərqli əmək haqqı standartlarının mövcud olması daha da gücləndirir. Dövlət tərəfindən analıq məzuniyyəti üçün vahid ödəniş normasının müəyyən edilməsi vacibdir və ödənişin məbləği həm uşaq, həm də ana üçün layiqli yaşayış şəraiti yaratmağa imkan verməlidir.[19] Ödənişin miqdarını uyğunlaşdırmaq və analığın müdafiəsi hüququnu həyata keçirmək üçün Gürcüstan dövlətinin Beynəlxalq Əmək Təşkilatının Analığın Mühafizəsi üzrə 183-cü Konvensiyasını ratifikasiya etməsi məqsədəuyğundur.[20]

Gürcüstanın Xalq Müdafiəçisi qeyd edir ki, müasir gender stereotiplərindən azad olan valideyn məzuniyyəti hər iki valideynin hüququ və vəzifəsidir. Bundan əlavə, bütövlükdə gender bərabərliyi və qadınların iqtisadi imkanlarının artırılmasına yalnız qadın haqqında stereotiplərin qırılması hesabına nail olmağı düşünmək ağlasığmazdır. Kişilər haqqında, onların ailədə yalnız iqtisadi rol oynaması ilə bağlı mövcud olan yanlış təsəvvürlərə də yenidən baxmaq lazımdır. Bu yanaşmanı Gürcüstan qanunvericiliyi də müəyyən dərəcədə bölüşür.

Məlum olduğu kimi, 2021-ci ildə Gürcüstanın orqanik Qanununa - Gürcüstanın Əmək Məcəlləsinə edilən düzəlişlər qüvvəyə minib və bu düzəlişlərə görə hər iki valideynə uşağa qulluqla bağlı məzuniyyətin ödənişli hissəsindən istifadə etmək imkanı verilib[21] (uşağın anası bu hüquqdan istifadə etmirsə).[22]

---

[18] Gürcüstan Xalq Müdafiəçisinin ayrı-seçkiliklə mübarizə, onun qarşısının alınması və bərabərlik vəziyyəti dair 2020-ci il üzrə xüsusi hesabatı, 15-18, bburadan əldə edə bilərsiniz: https://bit.ly/3IeAr8G

[19] Öz növbəsində qeyd etmək lazımdır ki, bu məsələlər Gürcüstan və Avropa İttifaqı arasında Assosiasiya Sazişinin və müvafiq gündəliyin tərkib hissəsidir və Gürcüstanın Əmək Məcəlləsinə edilən son dəyişikliklər bu öhdəliklərə uyğundur.

[20] Beynəlxalq Əmək Təşkilatının 183 saylı Konvensiyasına əsasən, analıq məzuniyyəti zamanı ödənişlə bağlı dörd standart mövcuddur: birinci standarta əsasən, bu ödəniş ananın əvvəlki gəlirinin ən azı üçdə ikisini təşkil etməlidir; İkinci standarta görə əmək haqqı orta əmək haqqının ən azı üçdə ikisini təşkil etməlidir; üçüncü standarta görə, analıq məzuniyyətinə görə verilən ödəniş işçinin əmək qabiliyyətini itirdiyi dövr üçün verilən ödənişə bərabər olmalıdır; dördüncü sstandarta görə isə, əgər ölkənin iqtisadi vəziyyəti yuxarıda göstərilən standarta cavab verməyə imkan vermirsə, o zaman müəyyən edilmiş ödəniş daim artırılmalı və bu halda dövlət Beynəlxalq Əmək Təşkilatına müvafiq izahatlar təqdim etməlidir.

[21] Gürcüstanın orqanik qanunu - "Gürcüstanın Əmək Məcəlləsi"nin 37-ci maddəsinin 3 və 4-cü bəndləri, həmçinin 39-cu maddəsi

[22] Gürcüstanın Orqanik Qanunu - Gürcüstan Əmək Məcəlləsi, 37-ci maddəsinin 4-cü bəndi, həmçinin 39-cu maddəsi

Gürcüstan Xalq Müdafiəçisi üçün bu dəyişikliklərin nəticələrini öyrənmək vacib idi. LEPL Sosial Xidmət Agentliyinin məlumatına görə, Dövlət Ödənişlərinin Vahid Mühasibatlıq Bazasına əsasən, 2021-ci ilin yanvar-noyabr ayları ərzində 333-ü qadın və 48-i kişi olmaqla, ümumilikdə 381 işçi ödənişli uşağa qulluq məzuniyyətindən yararlanıb. Bu 48 kişidən 46 -sı uşağa qulluğa görə 57 gün (bir halda 30 gün, bir halda 19 gün) məzuniyyət götürüblər və onlara ödənilən məbləğ (7 hal istisna olmaqla) 1000 lari, 48 nəfərə cəmi 45310 lari təşkil edib.[23] Atanın, ananın hamiləlik və doğuş ilə əlaqədar istifadə olunmamış məzuniyyət günlərindən istifadə etməsi faktlarına gəlincə: 3 belə fakt təsbit edilmişdir (iki halda 126 gün və bir halda 115 gün məzuniyyət götürülüb) və onların hər birinə ödənilən məbləğ 1000 Lari olub.[24] Bundan əlavə, bir neçə özəl şirkətdən Xalq Müdafiəçisinin Aparatına məlumat daxil olub ki, bu məlumatlara da əsasən, bu il heç bir kişi uşağa qulluq üzrə məzuniyyətdən yararlanmayıb. Onlardan biri qeyd edib ki, Əmək Məcəlləsinə edilən dəyişikliyə əsasən, onların nizamnaməsində atanın uşağa qulluq etmək üçün məzuniyyət götürmək hüququ ayrıca təsbit edilib.

Ölkədə gender bərabərliyinin bərqərar olması prosesi əsnasında Gürcüstan qanunvericiliyinə uşağa qulluq məzuniyyəti məsələləri ilə bağlı, digər ölkələrin təcrübəsinə və beynəlxalq və ya regional standartlara əsaslanaraq daha çox dəyişikliklərin edilməsi vacibdir. Məsələn, Aİ-nın 2019/1158 saylı Direktivi hər bir valideyn üçün ən azı 4 aylıq ayrıca məzuniyyət müddətini nəzərdə tutur, bunun ən azı iki ayı yalnız valideynlərdən biri tərəfindən istifadə edilir və iki ay digər valideynə ötürülə bilər.[25] Hər bir valideynin müstəsna məzuniyyətdən istifadə etməsini həvəsləndirmək bu məzuniyyətə görə adekvat ödəniş nəzərdə tutulmalıdır.[26] Eyni Direktivdə yer alan atalıq məzuniyyəti ilə bağlı yenilənmiş standartı qeyd etmək də vacibdir.[27] Sənəddə atalıq məzuniyyəti [28] müəyyən edilmişdir ki, bu məzuniyyəti də valideyn uşağın doğulduğu gündən etibarən 10 iş günü ərzində götürə bilər. Atalıq məzuniyyətinə görə ödəniş ən az əlilliyə görə ölkədə nəzərdə tutulmuş ödəniş həddinə uyğun olmalıdır. Bu Direktivə uyğunluğu təmin etmək üçün Üzv dövlətlər zəruri olan qanunların, qaydaların və inzibati müddəaların 2 avqust 2022-ci ilə qədər qüvvəyə minməsini təmin etməlidirlər.

Beləliklə, gender stereotiplərinin qanunvericilikdə öz əksini tapmaması və təkcə ananı deyil, hər iki valideyni uşağa qulluq üzrə məzuniyyətin fəal iştirakçıları kimi qəbul edən qabaqcıl beynəlxalq təcrübəyə uyğun olması vacibdir. Bu tip dəyişikliklər qadınların hüquqi vəziyyətini yaxşılaşdıracaqdır. Bundan əlavə, belə bir yanaşma uşağın emosional və intellektual inkişafına müsbət təsir göstərəcəkdir.

---

[23] Sosial Xidmət Agentliyinə 22 noyabr 2021-ci il tarixli məktub № 04/11476

[24] Sosial Xidmət Agentliyinə 22 noyabr 2021-ci il tarixli məktub № 04/11476

[25] Valideynlər və uəağa qulluq edənlər üçün iş-həyat balansı üzrə Avropa Parlamentinin və Avropa İttifağı Şurasının 20 iyun 2019-cu il tarixli 2019/1158 saylı Direktivi (Aİ) və Şuranın ləğv edən Direktivi 2010/18/EU, Maddə. 5.

[26] Valideynlər və uəağa qulluq edənlər üçün iş-həyat balansı üzrə Avropa Parlamentinin və Avropa İttifağı Şurasının 20 iyun 2019-cu il tarixli 2019/1158 saylı Direktivi (Aİ) və Şuranın ləğv edən Direktivi 2010/18/EU, Maddə 8 (3).

[27] Gürcüstanın Xalq Müdafiəçisi beynəlxalq təcrübədən istinad edir ki, həmin təcrübə də hamiləlik və doğuşla bağlı məzuniyyət, atalıq məzuniyyəti və uşağa qulluq üzrə məzuniyyəti fərqləndirir. Analıq məzuniyyətinə hamiləlik və doğuş üzrə məzuniyyət [Gürcüstanın qanunvericiliyi ilə müəyyən edilmiş], uşaq doğulduqdan sonrakı müddəti əhatə edən atalıq məzuniyyəti [bu məzuniyyət forması Gürcüstan qanunvericiliyi ilə tanınmır] və Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş uşağa qulluq göstərilməsi üçün hər iki valideyni əhatə edən məzuniyyət.

[28] Orig. Atalıq məzuniyyəti.

## 3. Əlillərin bərabərliyi

Xalq müdafiəçisi uzun illərdir ki, əlilliyi olan şəxslərin tibbi vəziyyətinin onların hüquqi vəziyyətinə mənfi təsir göstərdiyini, bunun da praktikada müxtəlif formada əlilliyi olan şəxslərin fərdi ehtiyaclarını ödəyən müavinətlər almasına mane olduğunu vurğulayır. Bu problem xüsusilə səhiyyə və sosial təminat sahələrində özünü büruzə verir.

Digər problem fiziki və ya digər giriş\çatım imkanlarının təmin edilməsidir ki, bu da əlilliyi olan insanların müstəqil yaşaması üçün əhəmiyyətli maneə törədir. 2021-ci ildə bu məsələ əlilliyi olan hamilə qadınların hüquqları kontekstində aşkar olub. Xalq müdafiəçisinin təcrübəsi göstərir ki, həmin qadınlar tibbi xidmət almaqda maneələrlə üzləşirlər. Xüsusilə, həm prenatal müəssisələrdə fiziki uyğunlaşma problemləri, həm də tibbi məlumatların əldə edilməsi ilə bağlı problemlər müəyyən edilmişdir.

Təhsil mühitinin sağlamlıq imkanları məhdud olan uşaqların ehtiyaclarına uyğunlaşdırılması məsələsi də qüsurlu olaraq qalır və bu il qeyri-formal təhsil alma prosesində problem kimi müəyyən edilib.

### 3.1. Əlilliyin tibbi modelindən irəli gələn problemlər

Əvvəlki illərdə olduğu kimi, cari hesabat dövründə də Gürcüstanda əlillik statusunun müəyyən edilməsi üzrə tibbi modellə bilavasitə bağlı olan problemlər müəyyən edilib. Xalq müdafiəçisi illərdir əlillik statusunun verilməsinin sosial modelinin tam şəkildə həyata keçirilməsinin zəruriliyini qeyd edir.[29] Bu model əlilliyi olan şəxsin statusunun müəyyən edilməsi və onlara sosial müavinətlərin (maddi və ya qeyri-maddi) verilməsi zamanı təkcə tibbi diaqnozun deyil, həm də fərdin fərdi ehtiyaclarının və ətraf mühit amillərinin fərdi qiymətləndirilməsini nəzərdə tutur.

Əlillik statusunun verilməsinin qüsurlu modeli praktikada xüsusilə səhiyyə və sosial təminat sahələrində problemlər yaradır və bu baxımdan həssas qruplara dəstək göstərilməsi vacibdir. 2021-ci ildə Gürcüstanın Xalq Müdafiəçisi tərəfindən bu sahədə ayrı-seçkilik yaradan təcrübə aşkar edilmişdir. Belə ki, əlilliyi olan bir şəxsə dövlət tərəfindən bəzi qruplara ödənilən ümumi tibbi xidmət (ortopedik endoprotez) üzrə kompensasiya ödənilmirdi. Qeyd olunmalıdır ki, hökumətin 21 fevral 2013-cü il tarixli 36 saylı qərarına əsasən, ortopedik endoprostetikaya görə müavinət yalnız ağır əlilliyi olan şəxslərə ödənilir. Xalq müdafiəçisi hesab edir ki, əlilliyi olan şəxslərin qiymətləndirilməsi üzrə tibbi model xüsusilə həssas qrup olan əlilliyi olan şəxslərin qiymətləndirilməsini nəzərdə tutsa da, tibbi modeli sosial modellə əvəz etməzdən əvvəl həyata keçirilən sağlamlıq proqramları fərdi ehtiyacları nəzərə almalıdır. Xalq müdafiəçisi ayrı-seçkilik faktını müəyyən etdikdən sonra Gürcüstanın baş nazirinə tövsiyə ünvanlamışdır.[30]

Bundan əlavə, Xalq Müdafiəçisinin cari ildə nəzərdən keçirdiyi işlərdən biri Gürcüstanın Daun Sindromlu uşaqların əlillik statusunun müəyyən edilməsində problemlərlə üzləşdiyini bildirən şikayət

---

[29] Xalq Müdafiəçisinin Gürcüstanda İnsan Hüquqları və Azadlıqlarının Vəziyyətinə dair 2017-ci il Parlament Hesabatı, 33; Xalq Müdafiəçisinin Gürcüstanda İnsan Hüquqları və Azadlıqlarının Vəziyyətinə dair 2016-cı il Parlament Hesabatı, 663-78.

[30] Gürcüstan Xalq Müdafiəçisinin Gürcüstan hökumətinə 9 iyul 2021-ci il tarixli tövsiyəsi ilə aşağıdakı ünvanda tanış olmaq olar: https://bit.ly/3GdsfUs

olmuşdur, belə ki, müvafiq normativ aktlarda Daun Sindromu nozologiyalar siyahısına daxil edilməyib. Açıqlamaya görə, autizm spektri olan uşaqlara da oxşar məntiq şamil olunur. Gürcüstanın Xalq Müdafiəçisi qeyd olunan işdə izah edib ki, indiki mərhələnin əsas problemi Gürcüstanda fəaliyyət göstərən və şəxs üçün müəyyən edilmiş tibbi diaqnostikaya əsaslanan qiymətləndirmə sistemidir. Müvafiq olaraq, məqsəd onu həssas qrupların ehtiyaclarını ödəmək və cəmiyyətə inteqrasiyasını təmin etmək üçün lazımi inzibati qurumda mövcud olan resurslara malik sosial modellə əvəz etməkdir. Buna görə də, İctimai Müdafiəçi nozologiyalar siyahısında Daun Sindromunun və/və ya autizm spektrinin göstərilməsini ayrı-seçkilik hesab etməmişdir. Bundan əlavə, bu diaqnozların mövcud modelinə əsasən, sağlamlıq imkanları məhdud uşağa statusun verilməsi istisna edilmir. Bundan əlavə, bir sıra məqsədyönlü proqramlar da mövcuddur ki, onlarda da iştirak sağlamlıq imkanları məhdud uşaq statusunun verilməsindən asılı deyildir.

### 3.2. Hamilə qadınların hüquqları kontekstində çatım (əlçatanlıq) problemi

Gürcüstanın Xalq Müdafiəçisi uzun illərdir ki, bu insanlar üçün əlçatan mühitin təmin edilməsi və onların digər əlillərin yararlandığı hüquqlardan bərabər şəkildə faydalana bilməsini təmin etmək üçün davamlı iş aparılmasının vacibliyini qeyd edir.[31] Hesabat dövründə əlçatanlıq problemləri reproduktiv hüquqlar sahəsində xüsusilə kəskin olmuşdur.

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Gürcüstan Qanunu əlilliyi olan qadınları və qızları ayrı-seçkilikdən qorumaq öhdəliyini xüsusi vurğulayır və qadınların və qızların xüsusi ehtiyaclarının nəzərə alınmasını tələb edir.[32] Qanun dövlətin, əlilliyi olan qadınların digər qadınlarla bərabər şəkildə reproduktiv sağlamlıq hüququndan istifadə etmək hüququnu təşviq etməklə bağlı öhdəliyini birbaşa müəyyən edir.[33] Bu məqsədlə fiziki çatım da daxil olmaqla, binalara, məlumatlara, tibb müəssisələrinə və digər xidmətlərə çıxış təmin edilməlidir.[34]

Xalq Müdafiəçisinin 2021-ci ildəki fəaliyyəti göstərdi ki, əlilliyi olan hamilə qadınlar səhiyyə xidmətlərindən istifadə zamanı maneələrlə üzləşirlər. Xüsusilə, antenatal tibb müəssisələrində həm fiziki uyğunlaşma problemləri, həm də sağlamlıq məlumatlarına çıxışda çətinliklər müəyyən edilmişdir.[35]

2020-ci ildən başlayaraq antenatal xidmət göstərən müəssisələrdə qiymətləndirmə prosesi başlanıb və bu proses 31 dekabr 2021-ci il tarixinə qədər tamamlanmalı idi və 1 yanvar 2022-ci ildən etibarən xidmət təminatçıları yalnız, əlilliyi olan insanlar üçün uyğunlaşdırılmış mühitin təmin edilməsi tələbi də daxil olmaqla, qiymətləndirmə alətində göstərilən tələblərə tam cavab verən qurumlar olmalı idilər. Lakin 2021-

---

[31] Xalq Müdafiəçisinin Ayrı-seçkiliklə Mübarizə, Onun Qarşısının Alınması və Bərabərlik Vəziyyəti üzrə Xüsusi Hesabatı, 2018, səh. 11-12; Xalq Müdafiəçisinin 2019-cu il üçün ayrı-seçkiliklə mübarizə, onun qarşısının alınması və bərabərlik üzrə Xüsusi Hesabatı, səh. 15-18; Xalq Müdafiəçisinin 2020-ci ildə ayrı-seçkiliklə mübarizə, onun qarşısının alınması və bərabərlik üzrə Xüsusi Hesabatı, səh. 21-22.

[32] “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Gürcüstan Qanunu, Mad. 3, b. 4.

[33] Yenə də orada, Mad.6, b.3

[34] Yenə də orada, Mad. 4, b. 5 ("f").

[35] Bax. Gürcüstan Xalq Müdafiəçisinin İşğal olunmuş ərazilərdən olan Məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial məsələlər üzrə Nazirinə 9 iyul 2021-ci il tarixli ümumi təklifləri: https: https://rb.gy/reyz1g; https://rb.gy/arozlw

ci ilin may ayında müvafiq qərara dəyişiklik edilərək proses 1 il müddətinə təxirə salınıb.[36] Buna müvafiq olaraq, 2023-cü il yanvarın 1-dək hamiləliklə bağlı xidmətlərin göstərilməsi, əlilliyi olan şəxslər üçün zəruri mühitin yaradılması tələbi də daxil olmaqla, müvafiq tələblərə cavab verməyən müəssisələrdə davam etdiriləcək. Bu da öz növbəsində sağlamlıq imkanları məhdud olan hamilə qadınların "Ana və uşaq sağlamlığı" dövlət proqramı çərçivəsində maneələr olmadan pulsuz xidmətlər almasına təsir göstərir.

Əlilliyi olan hamilə qadınlarla bağlı əhəmiyyətli digər bir problem ondan ibarətdir ki, tibb müəssisələri görmə əlilliyi olan şəxsləri müvafiq formada tərtib edilmiş tibbi sənədlərlə təmin etmək öhdəliyi daşımırlar, nəticədə xəstənin öz sağlamlığı haqqında məlumatı/şəxsi məlumatlarını müstəqil şəkildə əldə etmək imkanı yoxdur, bu da onları üçüncü şəxslərdən asılı vəziyyətə salır.

Qeyd etmək lazımdır ki, hamiləlik qadına xas olan özünəməxsus vəziyyətdir və özü-özlüyündə onun ehtiyaclarına uyğunlaşdırılmış mühitin təmin edilməsini tələb edir. Beləliklə, müvafiq ehtiyaclar qarşılanmadıqda, əlilliyi olan hamilə qadınlar daha da çətin vəziyyətə düşürlər ki, bu da, bu iki əlaməti daşıyanların hüquqlarının müdafiəsi üçün birbaşa tədbirlərin görülməsini tələb edir. Bunu Xalq Müdafiəçisi tərəfindən cinsi və reproduktiv sağlamlıq və hüquqlar ilə bağlı aparılan araşdırma da təsdiq edir. Həmin araşdırmada görmə və fiziki cəhətdən əlilliyi olan qadınların antenatal xidmətlər almaqda xüsusi maneələrlə üzləşən qruplardan biri olduğu müəyyən edilib.[37]

Yuxarıda göstərilənləri nəzərə alaraq, Xalq Müdafiəçisi bir tərəfdən antenatal xidmət göstərən müəssisələrin qiymətləndirilməsi prosesinin sürətləndirilməsini, digər tərəfdən isə sağlamlıq vəziyyəti haqqında məlumatları özündə əks etdirən tibbi sənədlərin əlçatanlığının təmin edilməsini zəruri hesab edir. Bundan əlavə, sağlamlıq imkanları məhdud olan hamilə qadınların səhiyyə xidmətlərinə çıxışı baxımından ehtiyacları sistemli şəkildə təhlil edilməli və bu ehtiyacların ödənilməsi üçün müvafiq tədbirlər görülməlidir.

### 3.3. Uşağın təhsil prosesində ağlabatan uyğunlaşması

Ağlabatan yaşayış şəraitinin təmin edilməsi əlilliyi olan şəxslərin bərabərliyinin qorunmasının mühüm tərkib hissəsidir, çünki bu prinsip təkcə konkret qrupun deyil, konkret fərdin maraqlarının nəzərə alınmasını tələb edir. Cari hesabat ilinin təcrübəsi göstərdi ki, əlilliyi olan şəxslərin təhsilə bərabər çıxış imkanları mühüm problem olaraq qalır.

---

[36] Gürcüstanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər, əmək, səhiyyə və sosial məsələlər nazirliyi "Gürcüstanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər, əmək, səhiyyə və sosial məsələlər nazirinin "Antenatal və perinatal xidmətlərin regionallaşdırılması səviyyələrinin və xəstələr üçün müraciət meyarlarının təsdiq edilməsi haqqında" 14 may 2021-ci il tarixli 01-46 / N saylı əmri, 15 yanvar 2015-ci il -2 / N əmrində dəyişiklik edilməsi haqqında ".

[37] "Cinsi və Reproduktiv Sağlamlıq və Hüquqlar: Milli Qiymətləndirmə", Gürcüstanın Xalq Müdafiəçisi, 2019, səh. 13, https://rb.gy/694oaj mövcuddur

Ötən il həm orta təhsil pilləsində, həm də ali məktəblərə qəbul mərhələsində təhsil sahəsində əlillik zəminində ayrı-seçkilik,[38] xüsusilə ağlabatan uyğunluğu təmin etməkdən imtina faktları aşkar edilib.[39] Bu il əlilliyi olan uşaqlara qeyri-formal təhsilin təmin edilməsi sahəsində də problemlər müşahidə edilib.[40]

Xalq müdafiəçisi təhsil və yaradıcılıq müəssisəsi tərəfindən Daun sindromlu uşağa xidmət göstərməkdən imtina edilməsi ilə bağlı işə baxıb. Təhsil müəssisəsi əlverişli şəraitin yaradılması prinsipi əsasında təlim prosesinə uyğun alternativlər və dəyişikliklər tətbiq etməyi nəzərdən keçirmir, belə ki, bu prosesdə, yəni əlverişli mühitin yaradılması prosesində valideynlərin köməyindən (valideynlərin dərslərdə iştirakına icazə verilməsi) və uşaq psixoloqunun dəstəyindən istifadə etmək mümkün ola bilər.

Qeyd etmək lazımdır ki, qeyri-formal təhsil yeniyetmələrin savadlılıq səviyyəsinə, həmçinin onların məişət bacarıqlarının artmasına, eləcə də sosial və ya mədəni cəhətdən inkişafına kömək edir. Belə proqramlar çox vaxt formal təhsil sektorunda olan boşluqları doldurur. Bundan əlavə, qeyri-formal təhsil inklüziv təhsil kontekstində xüsusi əhəmiyyət kəsb edir, çünki onun çevik və kontekst yönümlü şərtləri əlilliyi olan insanların ehtiyaclarına daha yaxşı cavab verə bilir. Nəticə etibarı ilə, yeniyetmələr üçün qeyri-formal təhsil müəssisələrinin təmin edilməsinə görə məsuliyyət daşıyan qurumlar bütün əlilliyi olan uşaqların ehtiyaclarını düzgün müəyyən etməyə və onların fərdi ehtiyaclarına uyğun olaraq xidmətlər təklif etməyə borcludurlar.

## 4. Çoxluq təşkil etməyən dini mənsubiyyəti olan məhkumların dini ehtiyacları

Ötən il olduğu kimi[41], 2021-ci ildə də dini ehtiyacların ödənilməsi ilə bağlı problemlər aktuallığını itirməmişdir. Hesabat dövründə Xalq Müdafiəçisinə çoxluq təşkil etməyən dini etiqadlara mənsub olan məhkumlarla bağlı müraciət edilib. Xüsusilə, cəzaçəkmə müəssisələrində ibadət yerlərinin olmaması, dini bayramlarda yeyilməsinə icazə verilən yeməklərlə bağlı yanlış məlumatların verilməsi ilə bağlı suallar qaldırılıb.

İstər beynəlxalq,[42] istərsə də milli[43] qanunvericilik standartları məhkumların azadlıqdan məhrumetmə şəraitində, dini ayinlərdə və əlaqəli tədbirlərdə (o cümlədən, ibadət yerlərində)

---

[38] Gürcüstanın Xalq Müdafiəçisinin 20 iyul 2020-ci il tarixli Newton School of Robotics Ltd-nin direktoruna tövsiyəsi bu ünvanda mövcuddur:https://bit.ly/3oova6A

[39] Gürcüstan Xalq Müdafiəçisinin 7 dekabr 2020-ci il tarixli Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə və Milli Qiymətləndirmə və İmtahan Mərkəzinə müraciəti bu ünvanda mövcuddur:https://bit.ly/3oph7xF

[40] Gürcüstan Xalq Müdafiəçisinin 21 dekabr 2021-ci il tarixli Art-Time Studio Ltd-yə tövsiyəsi bu ünvanda mövcuddur: https://bit.ly/3eM6fo7

[41] Xalq Müdafiəçisinin 2020-ci ildə ayrı-seçkiliklə mübarizə, onun qarşısının alınması və bərabərlik üzrə Xüsusi Hesabatı, səh. 26-27.

[42] Məhkumlarla rəftarın minimum standart qaydaları, BMT Baş Assambleyası, 70/175 saylı qətnamə, Qaydalar 6, 42; Avropa Şurası Nazirlər Komitəsinin Avropa Penitensiar Qaydaları ilə bağlı Üzv Dövlətlərə Rec (2006) 2 Tövsiyəsi, səh. 29.1-29.2, 22.1.

[43] Gürcüstanın İslah və Hüquqi Yardım Nazirinin 30 dekabr 2010-cu il tarixli 187 nömrəli əmri "Təqsirləndirilən şəxslərin/məhkumların dini ayinlərdə iştirak etmək və din xadimləri ilə görüşmək hüququndan istifadə etmə hüququ haqqında", Art. 4; Həbs Məcəlləsi, Mad. 23, b. 6.

iştirak da daxil olmaqla, öz din və ya əqidəsini ifadə etmək hüquqlarından maksimum dərəcədə istifadə edə bilməsinə təminat verir. Buraya müvafiq qida rasionunun müəyyən edilməsi və ona əməl edilməsi də daxildir.[44] Lakin Xalq Müdafiəçisi Aparatının təcrübəsi göstərir ki, onların icrası problemlidir. Bu illər ərzində bir sıra məhkumlar həm dini bayramlarla bağlı qidalanma problemləri, həm də dini ayinləri lazımınca yerinə yetirə bilməmələri ilə bağlı açıqlamalar veriblər. İşlərin araşdırılması, əksər hallarda, məhkumların müvafiq prosedurlar barədə kifayət qədər məlumatlı olmadığını üzə çıxarıb.

2021-ci ildə məhkumlardan birinin telefon zəngi ilə Xalq Müdafiəçisinə müraciətində bildirilib ki, onun çoxsaylı müraciətlərinə baxmayaraq, cəzaçəkmə müəssisələrində Qurban bayramı zamanı icazə verilən qida məhsullarının siyahısı yerləşdirilməyib, amma xristian bayramları ilə bağlı belə siyahılar yerləşdrilib. Xüsusi Penitensiar Xidmətindən Xalq Müdafiəçisinin məlumat sorğusuna cavab olaraq bildirilib ki, cəzaçəkmə müəssisələrinin ərazisində icazə verilən qida məhsulları ilə bağlı məlumatların görünən yerdə asılması mümkündür.[45] Xidmətin verdiyi məlumata görə, ictimaiyyət həm pravoslav, həm də çoxluq təşkil etməyən dinlərin bayramları ilə bağlı xidmətin rəsmi internet səhifəsində (sps.gov.ge) məlumatlandırılır.[46] Bununla belə, qeyd etmək lazımdır ki, xidmətin saytında əhalinin Milad, Pasxa, Müqəddəs Məryəm, Müqəddəs Georgi və Yeni il kimi bayramlarda cəzaçəkmə müəssisəsinə bağlamalar gətirə bilməsi barədə məlumatlandırıldığını göstərən elanlar mövcuddur.[47] Bənzər elanlar sosial şəbəkələrdə də yayımlanır.[48] Çoxluq təşkil etməyən dini konfessiyaların bayramları ilə bağlı isə belə bir məlumata rast gəlinmir. Xüsusi Penitensiar Xidmətdən təmin edilən məlumatda müvafiq linklər göstərilmir.

İbadət yerlərinə gəlincə, bütün cəzaçəkmə müəssisələrində pravoslav kilsəsi var, başqa dinə mənsub olan məhkumlar üçün müvafiq ibadət yerləri isə cəmi iki (3 və 5 saylı) cəzaçəkmə müəssisəsində mövcuddur, baxmayaraq ki, digər müəssisələrdə də digər dinlərə mənsub olan məhkumlar saxlanılır.[49]

Nəticə etibarı ilə demək olar ki, dini bayramlarla əlaqədar icazə verilən yeməklər barədə çoxluq təşkil etməyən dini konfessiyaya mənsub məhkumların məlumatlandırılması və nəticədə bu imkandan tam şəkildə istifadə etməsi cəzaçəkmə müəssisəsinin rəhbərliyindən asılıdır və müəssisədə uyğunluğun təmin

[44] BMT-nin İnsan Hüquqları Komitəsinin № 22 Ümumi Şərhi: Maddə 18 (Fikir, Vicdan və Din Azadlığı), 1993, CCPR / C / 21 / Rev.1 / Add.4, para. 4, 8.

[45] Xüsusi Penitensiar Xidmətin 6 dekabr 2021-ci il tarixli 292813 / 01 nömrəli məktubu.

[46] Yenə də orada.

[47] Burada tanış ola bilərsiniz: https://rb.gy/vr0uqx

[48] Misal üçün bax: https://rb.gy/l4qarg; https://rb.gy/uzmiri; https://rb.gy/30zru0

[49] Xüsusi Penitensiar Xidmətin 6 dekabr 2021-ci il tarixli 292813 / 01 nömrəli məktubu. Qeyd edək ki, hesabat dövründə daxil olan ərizədə bildirilir ki, ərizəçi ibadət üçün kiçik yer ayrılmasını xahiş edib, çünki onun sözlərinə görə, kamerasında yer az olduğundan namaz qılmaq mümkün olmayıb. Bundan əlavə, kamerada tualet var və belə məkanda namaz qılmaq müvafiq dini qaydaların pozulması deməkdir.

edilib-edilməməsi barədə suallar da məhz həmin rəhbərliyə verilməlidir. Bu məsələ ilə bağlı uyğunluq əsasən pravoslav məhkumlara münasibətdə təmin edilir, belə ki, Xüsusi Penitensiar Xidmət əsas bayramlardan əvvəl ictimaiyyəti açıq şəkildə məlumatlandırır ki, bu da məhkumların ailə üzvlərinə icazə verilən ərzaq məhsulları haqqında məlumat almağa və  onların cəzaçəkmə müəssisələrinə çıxışını təmin etməyə imkan verir.

Eyni zamanda, dini azlıqlara mənsub olan məhkumlar üçün kifayət qədər ibadət yerlərinin olmaması belə təəssürat yaradır ki, Xüsusi penitensiar xidmət mövcud dini tələbatları ödəmək üçün rəsmi olaraq müvafiq standart və ya normalara uyğun şərait yaratmaqla bağlı öhdəliyini yerinə yetirmir.[50] Xalq Müdafiəçisi xüsusi olaraq qeyd edir ki, ölkədə bərabərlik hüququnu təmin etmək üçün dövlətin ayrı-seçkilik yaradan qanunvericilik və ya təcrübələrin yaradılmasından çəkinməsi kifayət deyil. Bu baxımdan ən böyük çətinlik dövlətin öz üzərinə götürdüyü müsbət öhdəlikləri yerinə yetirməsi  - konkret tədbirlər görməsidir.

Yuxarıda deyilənləri nəzərə alaraq, Xüsusi Penitensiar Xidmət tərəfindən penitensiar müəssisələrdə mövcud olan infrastruktur resurslarının dərindən araşdırılması və bu müəssisələrdə saxlanılan məhkumların dini tələbatlarını nəzərə almaqla, çoxluq təşkil etməyən dinlərin nümayəndələri üçün müvafiq tədbirlərin görülməsi ilə bağlı ciddi addımlar atılması vacibdir. Bundan əlavə, məhkumların dini bayramlarla əlaqədar icazə verilən yeməklər haqqında məlumatlandırılması üçün daha təsirli tədbirlər görülməlidir ki, bu da digər məsələlərlə yanaşı, penitensiar müəssisələrin əməkdaşları üçün müvafiq təlimlərin sistemli şəkildə təmin edilməsini nəzərdə tutur ki,  onlar dini bayramlarla bağlı hansı addımların atılmalı olduğunu bilsinlər. Bu kontekstdə, müvafiq siyahıları məhkumlar üçün nəzərə çarpan yerdə asmaq vacibdir. Bundan başqa, Xüsusi Penitensiar Xidmət dini azlıqların əsas bayramları zamanı bağlamaların qəbulu prosesinin başlanması barədə ictimaiyyətə elan şəklində məlumat verməlidir. Bu elanlara icazə verilən qidaların siyahısını da əlavə etmək məsləhətdir (bütün bayramlar zamanı).

## 5. Çoxluq təşkil etməyən etnik qrupların nümayəndələrinin hüquq bərabərliyi

İnsan hüquqları və bununla bağlı hüquqi mexanizmlər barədə məlumatlılığın aşağı olması, habelə mövcud sosial-iqtisadi çətinliklərin qayğısına qalmaq zərurəti səbəbindən çoxluq təşkil etməyən etnik mənsubiyyətə malik şəxslər arasında bərabərlik hüququnun pozulması hallarının sayı o qədər də yüksək deyil. Buna görə də, hesabat dövründə Xalq Müdafiəçisinin Aparatı milli azlıqların nümayəndələri ilə bir sıra üzbəüz görüşlər keçirib,[51]  bu görüşlərdə sistemli problemlər, o cümlədən dövlət xidmətlərindən istifadədə rast gəlinən maneələr və Mesxeti türk icmasının üzləşdiyi problemlər müəyyən edilib. Dmanisidə yerli sakinlər arasında baş verən qarşıdurma da diqqət çəkib.

### 5.1.Dövlət xidmətlərinə çıxış

[50] Bu, qurumdan tələb olunan məlumatla təsdiqlənir, həmin məlumata əsasən sosial işçilər müxtəlif dinlərə etiqad edən məhkumlardan dini ehtiyacları barədə məlumat alır, bundan sonra təqsirləndirilən şəxslərin/məhkumların müəyyən edilmiş ehtiyacları mümkün olduğu qədər ödənilir (Xüsusi Penitensiar Xidmətin 28 dekabr 2029-cu il, 28 dekabr 2021-ci il tarixli məktubu).

[51] Təfərrüatlar üçün Fəsil 11.3-ə baxın.

Müvafiq proqram və xidmətlərdən istifadə bərabər sosial-iqtisadi imkanların yaradılmasında mühüm rol oynadığından,[52] dövlət xidmətlərinə hamı üçün bərabər çıxışın təmin edilməsi inklüzivliyin mühüm hissəsidir.[53] Gürcüstan hökuməti çoxdilli dövlət xidmətlərinin göstərilməsi ilə bağlı tövsiyələri hələ 2009-cu ildə qəbul etmişdir, çünki dövlət xidmətlərinə çıxış gürcü dilli olmayan azlıqlar üçün problem yaradırdı.[54] Məhz həmin dövrdən Tolerantlıq və Vətəndaş İnteqrasiyası üzrə Milli Konsepsiyanın və 2009-2014-cü illər üçün Fəaliyyət Planının[55] hazırlanması ilə vahid inteqrasiya siyasəti formalaşmağa başladı. Bununla belə, 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə Dövlət Strategiyasında etnik azlıqların üzvlərinin iqtisadi hüquqlarını həyata keçirməkdə və sosial imtiyazlardan istifadə etməkdə çətinliklərlə üzləşməkdə davam edildiyi qəbul edilir.[56]

Bu istiqamətdə əsas maneə dil baryeridir. Son illər ərzində dövlət dilinin tədrisi ilə bağlı bir sıra müsbət addımlar atılsa da,[57] Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasında haqlı olaraq qeyd olunur ki, dövlət dilinin tədrisinə məktəbə qədərki təhsil, məktəb, peşə, ali və böyüklərin təhsili səviyyələrində ardıcıl, davamlı və vahid dil tədrisi sisteminin yaradılması problemi mövcuddur.[58] Xalq Müdafiəçisinin Aparatı nümayəndələrinin etnik azlıqların məskunlaşdığı rayonlara səfərləri dövlət dilinin tədrisinin təbliğ olunmasının yetişkin əhali arasında gücləndirilməsinin vacib olduğunu vurğulamışdır. Bundan əlavə, məktəblilər gürcü dilinin tədrisinin keyfiyyətindən narazılıqlarını bildirirlər. Maraqlıdır ki, çox sayda valideynlər övladlarının etnik gürcü tələbələrlə birlikdə çoxdilli mühitdə məktəbəqədər və məktəb təhsili almasını istəyirlər. Onların fikrincə, bu, bir tərəfdən gürcü dilinin öyrənilməsini təkmilləşdirəcək (qeyri-gürcü dilli məktəb və sektorlardan fərqli olaraq, çünki həmin məktəb və sektorlarda ünsiyyət əslində tamamilə ana dilində, (o cümlədən ikidilli müəllimlər tərəfindən) aparılır). Digər tərəfdən, birgə təlim etnik azlıqların etnik gürcü şagirdləri və tələbələri ilə fəal əlaqələr qurmasına imkan verdiyi üçün onların erkən yaşlarından inteqrasiya prosesini asanlaşdıracaq. Məsələ burasındadır ki, etnik gürcü tələbələrlə birlikdə ali təhsil alan 1+4 ali təhsil proqramı məzunlarının əksəriyyətinin gürcü dilini nisbətən səlis bilmələri[59] bu cür narahatlıqların əsaslı olduğunu təsdiqləyir.

---

[52] Avropa İqtisadi və Sosial Komitəsinin "Aİ Üzv Dövlətlərində Müxtəlifliyin İdarə Edilməsi" mövzusunda rəyi, para. 3.5, bu ünvana daxil olmaqla tanış olmaq olar: https://rb.gy/30o5i8

[53] 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası və 2021-2022-ci illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının Fəaliyyət Planı haqqında "Gürcüstan Hökumətinin 13 iyul tarixli 356 saylı qərarı, Əlavə, səh. 32-33.

[54] Təcrid dairəsini qırmaq: Bu gün Gürcüstanda Azlıqların Hüquqları, Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup , 2009, səh. 4, 7, https://rb.gy/baklhq ünvanında mövcuddur

[55] Gürcüstan Hökumətinin 8 may 2009-cu il tarixli 348 nömrəli Tolerantlıq və Vətəndaş İnteqrasiyası üzrə Milli Konsepsiya və Fəaliyyət Planının təsdiq edilməsi haqqında

[56] 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası və 2021-2022-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının Fəaliyyət Planı haqqında "Gürcüstan Hökumətinin13 iyul tarixli 356 saylı qərarı, Əlavə 20. 1, səh. 33

[57] Gürcüstan Xalq Müdafiəçisinin 2018-ci il üzrə Parlamentə Hesabatı, səh. 291-292

[58] 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası və 2021-2022-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının Fəaliyyət Planı haqqında "Gürcüstan Hökumətinin13 iyul tarixli 356 saylı qərarı, Əlavə 20. 1, səh. 16

[59] Yenə də orada, P. 23; Gürcüstan Xalq Müdafiəçisinin 2018-ci il üzrə Parlamentə Hesabatı, səh. 291.

Lakin bu proqramı da tam effektiv hesab etmək olmaz, çünki müvafiq dil qruplarına ayrılan vəsaitin həcminə görə çox sayda tələbə maliyyələşmədən kənar qalır.[60] Bu fonda normativ məhdudiyyət daha da problemlidir, çünki həmin məhdudiyyətə görə gürcü dili üzrə təhsil proqramının benefisiarları olan tələbələrin təhsil haqları tam şəkildə dövlət tərəfindən maliyyələşdirilmir.[61] Nəticədə, etnik azlıqların nümayəndələri Vahid Milli İmtahanlarda azərbaycan, erməni, osetin və ya abxaz dili testlərindən keçsələr, təhsillərini davam etdirmək üçün kifayət qədər maliyyə dəstəyi olmadıqda, onların ali təhsil almaq imkanlarının şübhə altına alınması reallığı ilə üzləşirlər. Bundan əlavə, hesabat dövründə Xalq Müdafiəçisi Aparatı ali təhsil müəssisələrində azərbaycan/erməni dili və ədəbiyyatı fənlərinin olmaması ilə bağlı məsələ qaldırıb ki, bu da tələbələrin bu sahələr üzrə ixtisaslaşmasına imkan vermir və onları Azərbaycanda / Ermənistanda təhsil almağa vadar edir. Xalq müdafiəçisi 2022-ci ilə qədər təhsil sahəsində həyata keçirilməsi nəzərdə tutulan qanunvericilik dəyişiklikləri və ya islahatları çərçivəsində qeyd olunan məsələlərin nəzərə alınmasını vacib sayır.

Dil baryeri ilə əlaqədar olaraq, çoxluq təşkil etməyən etnik qrupların nümayəndələri xidmət təminatçılarında (xüsusilə operatorlar, məsləhətçilər və s. ilə təmasda olanlar) belə xidmətlərə onların ana dilində danışan kifayət qədər işçi götürülmədiyindən, dövlət xidmətlərindən lazımi şəkildə istifadə edə bilmirlər. Əksər hallarda yanlış anlama baş verir ki, bu da bəzi hallarda gürcü dilli olmayan benefisiarlara qarşı aqressiya yaranmasına səbəb olur. Vətəndaşların böyük şəhərlərdə və ya paytaxtda müvafiq xidmətlər almalı olduğu hallarda problem daha da kəskinləşir. Məsələn, belə bir vəziyyət kənd yerlərindən olan əhalinin səhiyyə xidmətlərindən istifadəsi zamanı müntəzəm olaraq yaranır.[62] Belə ki, kənd yerlərində mövcud olan səhiyyə müəssisələri əsasən ilkin tibbi yardımın göstərilməsini həyata keçirir, lakin xəstələrin tibbi ehtiyacları yalnız ilkin tibbi yardım müəssisəsinin göstərdiyi xidmətlərlə məhdudlaşmır. Onu da qeyd etmək lazımdır ki, verilən məlumatlara görə etnik azlıqların nümayəndələri ailə üzvlərini, qohumlarını və ya dostlarını özləri ilə həkimə aparmağa və onların köməyi ilə həkimlə danışmağa məcbur olurlar ki, bu da təbii ki, əlavə risk faktorları yaradır.[63] Milli azlıqların sosial və iqtisadi hüquqlarının həyata keçirilməsi üçün zəruri xidmətləri göstərən qurumlarla, o cümlədən Ədliyyə Evləri, Sosial Xidmət Agentliyinin ərazi idarələri, kommersiya banklarının filialları ilə də ünsiyyət problemləri müəyyən edilmişdir.

Müvafiq proqram və xidmətlərdən istifadəyə onlar haqqında məlumatın olmaması da mane olur. Bu baxımdan Gürcüstanın “Dövlət dili haqqında” Qanununda nəzərdə tutulmuş təminatlara böyük əhəmiyyət verilir ki, ona görə də milli azlıqların nümayəndələrinin kompakt yaşadığı bələdiyyələrin ərazisində dövlət və bələdiyyə orqanlarına Gürcüstanın Ümumi İnzibati Məcəlləsində mövcud olan qaydalardan fərqli qaydalar müəyyən etmək səlahiyyəti verilir. Milli azlığa mənsub şəxs tərəfindən verilən

---

[60] Xalq Müdafiəçisinin 2019-cu il üzrə Parlamentə Hesabatı, səh. 382; Xalq Müdafiəçisinin 2020-ci il üzrə Parlamentə Hesabatı, səh. 411-412.

[61] 2021-ci ildə Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən ali təhsil müəssisələrinə proqram maliyyələşdirilməsinin verilməsi Qaydaları və Şərtlərinin təsdiq edilməsi haqqında Gürcüstan Təhsil və Elm Nazirinin 21 iyul 2021-ci il tarixli №50/n əmri. 2022-ci tədris ili, Mad. 6, b. 5.

[62] Bax. 2020-ci il üçün “Əhalinin ilkin tibbi yardıma əlçatanlığına nəzarət edən kənd həkimi” dövlət proqramı çərçivəsində Gürcüstan Xalq Müdafiəçisinin Xüsusi Hesabatı https://rb.gy/esme13

[63] Sağlamlıq vəziyyəti haqqında məlumatların (şəxsi məlumatların xüsusi kateqoriyası) açıqlanması, narahatçılıq, daha az dürüstlük, müşayiət edən şəxslərin gələ bilməməsi/onları gözləmək səbəbindən həkimə müraciətin gecikməsi, gürcü dili və tibb dilini lazımi səviyyədə bilməmə və s. Bax. Məsələn, Gürcüstanda müsəlman qadınların mövcudluğu və onlara iztirabının çox qatlı təsviri, Sosial Ədalət Mərkəzi, 2021, səh. 12-13, Burada mövcuddur: https://rb.gy/1zbnt4

müraciət, şikayət və ərizəyə cavab ərizəni verən şəxsin mənsub olduğu milli azlığa mənsub olan şəxs tərəfindən həmin milli azlığın dilinə tərcümə edilir; [64] Bələdiyyə orqanı zəruri hallarda qəbul etdiyi normativ aktı da bu milli azlığın dilinə tərcümə edir. [65]

Xalq Müdafiəçisinin Aparatı bu sahədə mövcud vəziyyəti öyrənmək məqsədilə etnik tərkibi çoxluq təşkil etməyən etnik qruplardan ibarət olan bələdiyyələrdən məlumat istəyib.[66] Daxil olan məlumatlara görə,[67]Ninotsminda, Dmanisi və Axalkalaki bələdiyyələrinin sədrləri etnik azlıqların ana dillərində edilən şikayət və ərizələrə baxırlar, lakin onlara cavabı dövlət dilində verirlər; Dmanisi Bələdiyyəsi daha sonra izah edir ki, cavab hazırlandıqdan sonra maraqlı şəxslərə onların başa düşdüyü dildə izahat verilir; Tsalka Bələdiyyəsinə müraciətlər gürcü dilində təqdim olunur. Bolnisi Bələdiyyəsi yalnız gürcü dilində təqdim edilmiş ərizələrə baxır, belə ki, icraat mərkəzləşdirilmiş şəkildə dövlət dilində yaradılan xüsusi proqramın köməyi ilə aparıldığından, başqa dillərdə müraciətlərin qəbul edilməsi mümkün olmur. Bununla belə, bələdiyyə daha sonra aydınlaşdırır ki, Vətəndaşlara Xidmət və Qeydiyyat Şöbəsində etnik mənsubiyyəti azərbaycanlı və erməni olan dövlət qulluqçuları çalışır və zəruri hallarda onlar vətəndaşlara onların ana dilində xidmət göstərirlər.

Yerli özünüidarəetmə orqanlarından verilən məlumata görə, hər il bütün etnik qruplardan olan əhali üçün sosial və sağlamlıq proqramları həyata keçirilir. Bundan əlavə, etnik azlıqların sıx məskunlaşdığı şəhər və kəndlərdə dövlət və bələdiyyələrin sosial və səhiyyə proqramları haqqında məlumatlar yerli əhalinin ana dilində yayılır. Lakin bu proqramlarla tanışlıq, müvafiq məlumatların və məsləhətlərin verilməsi müvafiq normativ aktların bələdiyyə tərəfindən həmin azlıqların dilinə tərcümə edilməsi vasitəsilə deyil, yalnız mütəxəssislər, bələdiyyə nümayəndələri və üzvlərinin köməyi ilə mümkün olur. Bu baxımdan Bolnisi Bələdiyyəsi "Bolnisi" qəzeti ilə fəal əməkdaşlıq edir, bu isə bələdiyyənin və bələdiyyə sədrinin fəaliyyəti ilə bağlı məlumatların qəzetin saytında Azərbaycan dilində yerləşdirilməsi deməkdir ki, [68] bu da təbii ki, alqışlanır.

Milli azlıqların ən sıx məskunlaşdığı 6 bələdiyyədən yalnız Axalkalaki Bələdiyyəsinin rəsmi internet saytı çoxluq təşkil etməyən etnik qrupların ana dilinə tərcümə olunur. [69] Sosial şəbəkələrdə

---

[64] Gürcüstanın dövlət dili haqqında qanunu, maddə. 11, b. 4.

[65] Yenə də orada, Mad. 12, b. 2.

[66] Xalq Müdafiəçisinin Aparatı yanında Tolerantlıq Mərkəzinin saytında mövcud olan etnik müxtəliflik xəritəsinə əsasən: https://rb.gy/1pyfqc

[67] Ninotsminda Bələdiyyəsinin 29 noyabr 2021-ci il tarixli №122-1222133335 saylı məktubu; Tsalka Bələdiyyəsinin 30 noyabr 2021-ci il tarixli 09 / 2520 saylı məktubu; Dmanisi Bələdiyyəsinin 30 noyabr 2021-ci il tarixli №108-1082133461saylı məktubu; Axalkalaki Bələdiyyəsinin 2 dekabr 2021-ci il tarixli №116-1162133646 saylı məktubu; Bolnisi Bələdiyyəsinin 14 dekabr 2021-ci il tarixli №106-10621348103 saylı məktubu. Aparat Marneuli Bələdiyyəsindən cavab almayıb.

[68] Bax. https://rb.gy/egrsus; Bələdiyyə daha sonra bildirir ki, qəzetin çap nəşrində ayda bir dəfə Azərbaycan dili bölməsi yerləşdirilir və burada etnik azərbaycanlı vətəndaşlara bələdiyyədə həyata keçirilən infrastruktur, sosial, mədəni və idman layihələri haqqında məlumat verilir.

[69]Bax. http://akhalkalaki.ge/; https://rb.gy/spwi6b; https://www.tsalka.gov.ge/; https://www.dmanisi.gov.ge/; https://bolnisi.gov.ge/; https://www.marneuli.gov.ge/

vəziyyət nisbətən yaxşıdır - Axalkalaki[70] bələdiyyəsindən əlavə Ninotsminda[71] və Marneuli bələdiyyələri də[72] Azərbaycan və/və ya erməni dillərində məlumat yerləşdirirlər. Baxmayaraq ki, Bolnisi Bələdiyyəsi də Xalq Müdafiəçisinin Aparatının müraciətinə cavab olaraq bütün mühüm məlumatların, o cümlədən dövlət proqramları və xidmətləri ilə bağlı məlumatların sosial şəbəkədə azərbaycan dilində yerləşdiriləcəyini bildirir, səhifəni yoxlayanda, səhifədə yalnız müəyyən mövzularla bağlı materialların azərbaycan dilində yerləşdirildiyi təsdiqlənir; [73] Tsalka[74] və Dmanisi[75] bələdiyyələri məlumatı yalnız gürcü dilində yerləşdirirlər. Maraqlıdır ki, Tsalka Bələdiyyəsindən verilən məlumata görə, məlumat sosial şəbəkədə azərbaycan və erməni dillərində yerləşdiriləcək, lakin görünür, bu, Dmanisi Bələdiyyəsində olduğu kimi, yalnız gələcək plan kimi qəbul edilməlidir ki, bu da bu istiqamətdə işlərin aparıldığına dəlalət edir.

Beləliklə, dövlət proqramları və dövlət xidmətləri haqqında çoxluq təşkil etməyən etnik qruplar üçün başa düşülən dildə adekvat məlumatın təmin edilməsi qanunla bilavasitə nəzərdə tutulduğu hallarda belə, hətta milli azlıqların ən sıx məskunlaşdığı bələdiyyələrdə belə problemlidir ki, bu da təbii ki, digər bələdiyyələrdə vəziyyəti daha da ağırlaşdırır. Bələdiyyələrin yerli əhali ilə fəal ünsiyyətdə olduqlarını bildirməsi alqışlanır. Dmanisi Bələdiyyəsindən verilən məlumata görə, əhaliyə xidmət göstərmək üçün Bələdiyyə nümayəndələrinin kəndlərdə yerləşən ofisləri (inzibati vahidləri) kompüterlərlə təchiz edilir və internetlə təmin edilir. Bolnisi Bələdiyyəsi qeyd edir ki, etnik azlıqların yaşadığı kəndlərdə vətəndaşların bələdiyyə xidmətləri haqqında məlumat əldə etmələrini asanlaşdırmaq və ehtiyaclarını özünüidarəetmə orqanına tez bir zamanda çatdırmasını təmin etmək üçün nümayəndələr etnik ermənilər və azərbaycanlılardırlar. Lakin təkcə nümayəndələrin cəlb edilməsi və şifahi ünsiyyətin fəal olması problemin həlli üçün kifayət etməyəcək.

2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası sosial-iqtisadi şəraitin və imkanların yaxşılaşdırılmasına yönəlib. Tapşırıq 8.1 - Milli azlıqların dövlət sosial-iqtisadi proqramlarına cəlb edilməsinin artırılması. Bu tapşırığın yerinə yetirilməsi məqsədilə 2021-2022-ci illər üzrə Fəaliyyət Planında İşğal Olunmuş Ərazilərdən olan Məcburi Köçkünlər, Əmək, Səhiyyə və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və LEPP tərəfindən milli azlıqların nümayəndələri üçün sosial və tibbi proqramlarla bağlı ildə ən azı 2 brifinq keçirilməsi nəzərdə tutulur (40 benefisiar). Samtsxe-Cavaxeti, Kvemo Kartli və Kaxeti bələdiyyələri isə sosial-iqtisadi proqramlar haqqında əhalinin məlumatlandırılması məqsədilə etnik azlıqların sıx məskunlaşdığı ərazilərdə milli azlıqların nümayəndələri ilə ən azı 3000 benefisiar üçün nəzərdə tutulmuş məlumatlandırma görüşləri keçirməlidirlər (Fəaliyyət 8.1. 1.4-8). [76]

Xalq müdafiəçisi bu tədbirləri vacib hesab edir və məlumatlandırma görüşlərinin fraqment xarakteri daşımayacağına ümid edir. Lakin qeyd edək ki, 2017-2018-ci illərdə də analoji fəaliyyətlər həyata keçirilib. [77] Buna baxmayaraq, Sosial Tədqiqatlar və Təhlillər İnstitutunun 2019-cu il sorğusuna əsasən,

---

[70] https://rb.gy/sgvswe

[71] https://rb.gy/qofcxu

[72] https://rb.gy/r2tyvk

[73] https://rb.gy/rmbgxz

[74] https://rb.gy/brexwz

[75] https://rb.gy/byozuc

[76] Burada tanış ola bilərsiniz: https://rb.gy/ftl06r

[77] Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının və Fəaliyyət Planının icrasının monitorinqinin nəticələri, Xalq Müdafiəçisi yanında Tolerantlıq Mərkəzi, Milli Azlıqlar Şurası, səh. 15-16: https://rb.gy/jthm33

sorğuda iştirak edən etnik azlıqların 69,9%-i şəxsi və ya ailə ehtiyacları ilə bağlı yerli hökumətə müraciət etmədiklərini bildirib. Bundan əlavə, yerli özünüidarə orqanlarına müraciət və gürcü dilini bilmə dəyişənləri arasında statistik cəhətdən etibarlı əlaqə aşkar edilmişdir. Xüsusilə, sorğu göstərib ki, istər şəxsi, istərsə də ictimai ehtiyaclarını qarşılamaq üçün müraciət etməyən respondentlərin gürcü dilini bilmə indeksinin orta göstəricisi, bu və ya digər ehtiyacla bağlı ən azı bir dəfə müraciət edənlərin orta göstəricisindən aşağıdır.[78]

Yuxarıda göstərilənlərə əsaslanaraq, 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası təsdiq edilməzdən əvvəl İctimai Müdafiəçi yerli əhalinin ana dilində yaydığı öz tövsiyəsində şərh etmişdir ki, strategiyanın məqsədi əhalinin sıx məskunlaşdığı rayonların özünüidarəetmə orqanlarının internet saytları və sosial media səhifələrinin yerli əhalinin ana dilinə tərcümə edilməsindən ibarətdir.[79] Bu, çoxluq təşkil etməyən etnik qrupların üzvlərinə müvafiq xidmətlər və prosedurlar haqqında məlumatı vaxtında və sistematik şəkildə əldə etməyə imkan verəcəkdir.

Bu məqsədlə Xalq Müdafiəçisi Aparatının Kvemo Kartli və Samtsxe-Cavaxeti şöbələrində gürcü dilindən əlavə, azərbaycan və erməni dillərini mükəmməl bilən, yerli əhali ilə fəal ünsiyyətdə olan şəxslər də çalışırlar ki, onlar da digər orqanlarla əlaqələrin qurulmasına yardım edirlər. Şöbələr tərəfindən digər qurumlarla əlaqə yaradılması üçün Gürcüstanın Xalq Müdafiəçisi tərəfindən müəyyən edilmiş şəxslər tərəfindən göstərilən xidmətlər maraqlı şəxslər üçün ödənişsiz olaraq həyata keçirilir. Bundan əlavə, Qurumun rəsmi internet səhifəsində yerləşdirilən məlumatlar həm azərbaycan, həm də erməni dillərində mövcuddur.[80]

Digər dövlət xidmətlərindən istifadə məsələsinə gəlincə, əlavə olaraq qeyd etmək lazımdır ki, sosial-iqtisadi problemlər səbəbindən, çoxluq təşkil etməyən etnik qrupların nümayəndələri xidmətlərdən istifadə zamanı da maliyyə maneələri ilə üzləşirlər, belə ki, bir çox xidmətlər pulludur. Məsələn, Kvemo Kartli və Samtsxe-Cavaxeti bölgələrində kənd təsərrüfatı təyinatlı torpaqların mülkiyyət hüququnun qeydiyyata alınması məsələsi kritikdir.[81] Bununla əlaqədar olaraq, Xalq Müdafiəçisi Aparatının nümayəndələri ilə görüşlər zamanı yerli sakinlər bildiriblər ki, digər problemlərlə yanaşı, müvafiq xidmətlərin alınması üçün zəruri olan maliyyə vəsaitinin tapılması və təqdim olunacaq sənədlərin hazırlanması da onlara əlavə çətinlik yaradır.[82] Sosial çətinliklər səhiyyə xidmətlərindən istifadə zamanı da əhəmiyyətli maneə törədir. Bu yaxınlarda aparılan araşdırmalardan biri zamanı məlum olub ki, məsələn,

[78] Etnik Azlıqların Siyasi Həyatda İştirakına dair Araşdırma, Sosial Tədqiqatlar və Təhlillər İnstitutu, Açıq Cəmiyyət Fondu, 2019, səh. 78: https://rb.gy/yc1qqa

[79] Tövsiyələr 14 aprel 2021-ci ildə təqdim edilib, ətraflı məlumatı aşağıdakı ünvandan əldə etmək olar:: https://rb.gy/hiegxp

[80] Bax. https://ombudsman.ge/aze; https://ombudsman.ge/arm

[81] Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının Tənqidi Qiymətləndirilməsi, Sosial Ədalət Mərkəzi, səh. 10, Burada mövcuddur:https://rb.gy/vbdbwd

[82] Əmlakın qeydiyyatı üzrə xidmət haqları haqqında məlumatı aşağıdakı ünvandan əldə etmək olar: https://rb.gy/umedlq

Marneuli və Acarıstanda qadınların əksəriyyəti yalnız xəstəlikləri ağırlaşdıqda və ağrıları dözülməz olduqda həkimə müraciət edirlər; əks halda onlar ağrı ilə yaşamağı öyrənirlər.[83]

Belə ki, milli azlıqların dövlət xidmətlərinə çıxışının dil maneələri, xidmət müəssisələrində onların ana dilində danışanların sayının kifayət qədər olmaması və maliyyə maneələri kimi maneələrlə bağlı olduğu bir şəraitdə Xalq Müdafiəçisi bununla paralel olaraq sistemli işin aparılmasını zəruri hesab edir. Müvafiq proqramlar yalnız məlumat kampaniyaları vasitəsilə deyil, həm də müvafiq proqramların və ictimai xidmət təminatçılarının internet saytlarının və sosial şəbəkə səhifələrinin etnik azlıqların dilinə tərcümə edilməsi vasitəsilə yayılmalıdır. Qeyd etmək lazımdır ki, bu tədbirləri xüsusilə azərbaycanlı və erməni əhalisi olan bələdiyyələrdə həyata keçirmək vacibdir.

Yuxarıda göstərilənlərə əlavə olaraq, Xalq Müdafiəçisi dövlət orqanları ilə çoxluq təşkil etməyən etnik qrupların nümayəndələri arasında fəal və səmərəli əməkdaşlığın vacibliyini vurğulayır ki, onlar dövlət xidmətlərinə çıxış və ya milli azlıqlara dair digər məsələlərlə bağlı qərarların qəbulu prosesində iştirak edə bilsinlər. Bununla bağlı, bu istiqamətdə pozitiv addımlar atılması ehtiyacı qeyd olunmuşdur, belə ki, hesabat dövründə bir etnik azlığın nümayəndəsi Xalq Müdafiəçisinə müraciət edərək bildirmişdir ki, onun qanunverici orqanına müraciət etməsinə maneçilik törədilmiş və ona qarşı qeyri-etik davranışlar nümayiş etdirilmişdir, nəticədə müraciətin etnik mənsubiyyət zəminində yolverilməzliyi faktı meydana çıxmışdır.[84] Etnik azlıqların ölkənin siyasi və ictimai həyatına tam inteqrasiyasının Gürcüstan üçün problem olaraq qaldığını nəzərə alsaq, qərar qəbul edən orqanlarla münasibətlərdəki problemlər çoxluq təşkil etməyən etnik qrupların bərabərliyinə mənfi təsir göstərir, çünki həmin qruplar vəziyyəti yaxşılaşdırmaq üçün özlərinin özünəməxsus və unikal təcrübələri əsasında ideyalar yaratmaq imkanından məhrum edilmiş olurlar.

### 5.2. Mesxeti türk icmasının üzləşdiyi problemlər

Mesxeti türk icması üçün ictimai xidmətlərə çıxış və inteqrasiya problemlidir və bu, son nəticədə onların hüquqi statusuna təsir göstərir.

Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Nazirliyinin internet səhifəsində[85] verilən məlumata görə, 1944-cü il noyabrın 15-17-də sovet hakimiyyəti 20 minə yaxın ailəni Gürcüstandan Orta Asiyaya, əsasən də Ahıska (Mesxeti) bölgəsinə sürgün edib. Sonrakı miqrasiya prosesləri nəticəsində məcburi köçkünlər və onların övladları Azərbaycan, Rusiya Federasiyası, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Ukrayna və ABŞ-da məskunlaşmışlar. Deportasiya edilənlərin övladları 1970-ci illərin sonunda Gürcüstana qayıtmış və hazırda Quriya, İmereti, Şida Kartli və Samtsxe-Cavaxeti bölgələrində yaşayırlar. Gürcüstan Avropa Şurasına daxil olduğu zaman (1999-cu ildə) sovet rejimi tərəfindən deportasiya edilmiş Mesxeti türk əhalisinin repatriasiyası və inteqrasiyası, o cümlədən Gürcüstan vətəndaşlığı əldə etmək hüququ ilə bağlı hüquqi baza yaratmağı öhdəsinə götürüb. Bu istiqamətdə konkret addımlar yalnız 2007-ci ildə repatriat statusunun verilməsi prosedurlarını müəyyən edən və repatriatlara sadələşdirilmiş qaydada

[83] Gürcüstanda Müsəlman Qadınların Varlığı və Onların İztirabının Çoxşaxəli Təsviri, Sosial Ədalət Mərkəzi, 2021, səh. 10-20, Burada mövcuddur: https://rb.gy/1zbnt4

[84] Ərizəçi qeyd etmişdir ki, Gürcüstan parlamentinin İnsan Hüquqları və Mülki İnteqrasiya Komitəsi ilə planlaşdırılan görüşü baş tutmayıb və bu barədə ona bir gün əvvəl telefonla məlumat verilib. Şikayətdə bildirilir ki, görüşün ləğv edilməsinə səbəb kimi ərizəçinin "Ermənistanla əlaqəsi" və onun adının iştirak edənlər siyahısında olmaması göstərilir.

[85] Burada mövcuddur: https://rb.gy/ykn4fe

Gürcüstan vətəndaşlığını almaq hüququ verən qanunun qəbulu ilə atılıb.[86] Qanuna əsasən, 1998 nəfərə repatriat statusu verilmiş, onlardan 494 nəfəri dövlətə vətəndaşlıq ilə bağlı müraciət etmiş və şərti vətəndaşlıq əldə etmişdir.[87]

Yəqin ki, Gürcüstan Avropa Şurası qarşısında Mesxeti türklərinin repatriasiyası prosesini başa çatdırmaq üçün 12 illik müddətlə bağlı öhdəlik götürdüyünə görə,[88] yuxarıda qeyd olunan qanun repatriat statusu üçün müraciət etməklə bağlı son tarixi 2009-cu il iyulun 1-nə təyin etmişdir [89] (qeyd edək ki, repatriat Gürcüstan vətəndaşlığı üçün ərizəni həmin statusu aldıqdan sonra iki il ərzində təqdim etməlidir[90]). Hal-hazırda Gürcüstan hökumətinin “Repatriat statusu olan şəxslərin Gürcüstan vətəndaşlığına sadələşdirilmiş qaydada qəbul edilməsi haqqında”qərarı qüvvədən düşüb.[91]

Lakin 1944-cü ildə Gürcüstandan deportasiya edilənlərin sayı ilə (20.000 ailəyə qədər) Gürcüstana qayıtdıqdan sonra Gürcüstan vətəndaşlığını almış Mesxeti türklərinin sayına (494 nəfər) nisbəti Mesxeti türk icmasının repatriasiyası prosesini tam başa çatmış hesab etmək mümkün olmadığını təsdiqləyir. Oxşar qiymətləndirmə 2019-cu ildə Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının Məşvərət Komitəsinin rəylərində də öz əksini tapıb. Belə ki, bu zaman bildirilib ki, reallıqda deportasiya edilmiş Mesxeti türklərinin çox az hissəsi Gürcüstana geri qayıdıb. [92]

Müxtəlif bölgələrdə icma üzvləri ilə aparılan görüşlər[93] və hüquq müdafiə təşkilatlarının araşdırmaları göstərib ki, bəzi Mesxeti türkləri sadələşdirilmiş vətəndaşlıq prosedurunun müddətini qaçırdıqları üçün vətəndaşlıq əldə edə bilmirlər, baxmayaraq ki, digərləri üçün mövcud vətəndaşlıq prosedurları keçilməz maneələr yaratmır. Belə ki, digər ölkənin vətəndaşlığı və ya Gürcüstanda daimi və davamlı yaşama təcrübəsinin olmaması bu səbəblərə misal olaraq göstərilə bilər.[94] Bundan əlavə, Xalq Müdafiəçisi Aparatının məlumatına görə, Mesxeti türk icmasının adət-ənənələrinə əsasən, Mesxeti türk kişilər məhz Mesxeti türk qadınlarla ailə qururlar. Nəticədə, Gürcüstanda yaşayan Mesxeti türk kişilər (onların bəziləri Gürcüstan vətəndaşlarıdırlar) tez-tez başqa ölkələrdən olan Mesxeti türk qadınlarla evlənirlər ki, bu da deportasiya olunanların Gürcüstana qayıtmasının davamlı proses olduğunu və sabit

---

[86] 1940-cı illərdə keçmiş SSRİ tərəfindən Gürcüstan SSR-dən köçürülmüş məcburi köçkünlərin repatriasiyası haqqında Gürcüstan Qanunu, Mad. 9, Pun. 1.

[87] Gürcüstanın sadələşdirilmiş qaydada şərti vətəndaşlıq verilməsi haqqında qərarı qəbul eildikdən sonra 5 il ərzində onlar digər ölkənin vətəndaşlığından çıxmalıdırlar, məlumat burada mövcuddur:https://rb.gy/ykn4fe

[88] 1999-cu ildə Avropa Şurası Parlament Assambleyasının gəldiyi Nəticə 209, Pun. 10.2 ("e"), bu ünvanda mövcuddur: https://rb.gy/ntyumz

[89] 1940-cı illərdə keçmiş SSRİ tərəfindən Gürcüstan SSR-dən məcburi köçkünlərin repatriasiyası haqqında Gürcüstan Qanunu, Mad. 4, Pun. 7.

[90]. Repatriat statusuna malik olan şəxslərin Gürcüstan vətəndaşlığına sadələşdirilmiş qaydada qəbul edilməsi haqqında Gürcüstan Hökumətinin 30 mart 2010-cu il tarixli №87 Qərarı, Mad. 2.

[91] Gürcüstan Hökumətinin 30 mart 2010-cu il tarixli “Repatriat statusu olan şəxslərin Gürcüstan vətəndaşlığına sadələşdirilmiş qaydada qəbul edilməsi haqqında” 87 nömrəli qərarının ləğv edilməsi haqqında Gürcüstan Hökumətinin 9 noyabr 2015-ci il tarixli 570 nömrəli qərarı.

[92] Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının Məşvərət Komitəsinin Gürcüstanla bağlı Rəyi, 2019, Mad. 43, Buradan əldə edə bilərsiniz: https://rb.gy/g0rx5r

[93] Təfərrüatlar üçün 11.3 Fəslə baxın.

[94]Sosial Ədalət Mərkəzinin bəyanatı, 25 oktyabr 2021-ci il, burada mövcuddur: https://rb.gy/95xvos

hüquqi təminat tələb etdiyini göstərir. Əks halda, vətəndaşsızlıqla bağlı hüquqi və sosial problemlər, o cümlədən Mesxeti türklərinin səhiyyə proqramlarının və ya digər dövlət xidmətlərinin istifadəçiləri dairəsindən çıxarılması qaçılmazdır.[95] Qeyd edək ki, bəzi hallarda onlara daimi yaşayış icazəsi verilməsi problem yaradır.

İndiki şəraitdə Mesxeti türklərinə vətəndaşlıq verilməsinin yeganə yolu onların xarici vətəndaşlar üçün müəyyən edilmiş standart şərtlərə (Gürcüstanın dövlət dilini bilmək də daxil olmaqla) əməl etməsidir.[96] Xalq Müdafiəçisi Aparatının nümayəndələri ilə görüş zamanı Mesxeti türk icmasının nümayəndələri bildiriblər ki, gürcü dilini özləri, övladlarının dərsliklərindən istifadə etməklə öyrənməyə çalışırlar, bu isə, təbii ki, Gürcüstan vətəndaşlığını əldə etmək üçün kifayət etmir.

Buna görə də, Xalq Müdafiəçisi 2021-2030-cu illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasını təsdiq etməzdən əvvəl sənədə aşağıdakı vəzifənin daxil edilməsi ilə bağlı tövsiyə vermişdir: e. ჿ. Gürcüstanda yaşayan, Gürcüstan vətəndaşı olmayan və gürcü dilini bilməyən qarışıq ailələrin üzvlərinə və ya Gürcüstanda daimi yaşayan milli azlıqların nümayəndələrinə pulsuz gürcü dili kursları (Gürcüstan vətəndaşlığı üçün dövlət dili imtahanına hazırlıq da daxil olmaqla) təklif etmək böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, dövlətin Mesxeti türklərinin vətəni (Gürcüstan) ilə tarixi bağlılığını unutmaması və onlara sadələşdirilmiş qaydada vətəndaşlıq verilməsi prosedurlarını yenidən tətbiq etməsi vacibdir. Qeyd edək ki, 2014-cü ildə Gürcüstan hökuməti Repatriasiya üzrə dövlət strategiyasını təsdiqləyib, lakin strategiya yalnız repatriat statusu və/yaxud Gürcüstan vətəndaşlığını almış şəxslərə şamil edilir.[97] Məntiqlidir ki, 2019-cu ildə Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının Məşvərət Komitəsi Gürcüstana dair rəyində məcburi köçkün olan Mesxeti türklərinin könüllü qayıdışına kömək etmək üçün səylərin davam etdirilməsi ilə bağlı çağırış edib.[98]

### 5.3. Dmanisi münaqişəsi

Mədəniyyətlərarası dialoq vətəndaş bərabərliyi sahəsində dövlət siyasətinin strateji prioritetlərindən biri olsa da,[99] 2021-ci il may ayının 16-17-də Dmanisidə yerli əhali arasında baş vermiş zorakılıq hadisəsi kimi hadisələr inteqrasiya prosesinə mənfi təsir göstərir.

Hadisə yerindən daxil olan məlumata görə, münaqişə başladıqdan sonra iki gün davam edən amansız zorakı qarşıdurmaya çevrilib.[100] Maraqlıdır ki, müxtəlif KİV və təşkilatlar tərəfindən münaqişənin işıqlandırılması nəticəsində etnik gürcü və etnik azərbaycanlı vətəndaşlar münaqişənin tərəfləri kimi

---

[95] Bax. Məsələn, Sosial Ədalət Mərkəzinin videoreportajı: "Mesxeti türklər xaricdə yaşayır": https://rb.gy/2gd94n

[96] Gürcüstan vətəndaşlığı haqqında Gürcüstanın orqanik qanunu, Art. 12, Pun. 1 ("b"), maddə. 14, b. 1.

[97] 1940-cı illərdə keçmiş SSRİ tərəfindən Gürcüstan SSR-dən köçürülən məcburi köçkünlərin repatriasiyası üzrə Dövlət Strategiyasının təsdiq edilməsi haqqında Gürcüstan Hökumətinin 12 sentyabr 2014-cü il tarixli Qərarının №1671 preambulası.

[98] Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının Məsləhət Komitəsinin Gürcüstan haqqında Rəyi, 2019, Mad. 48, Bu ünvanda mövcuddur:https://rb.gy/g0rx5r

[99] 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyası və 2021-2030-cu illər üzrə Vətəndaş Bərabərliyi və İnteqrasiyası üzrə Dövlət Strategiyasının 2021-2022-ci illər üçün Fəaliyyət Planı haqqında "13 iyul 2011-ci il tarixli 356 nömrəli Qərar, Əlavə, səh. 56.

[100] Bax. Gürcüstan Xalq Müdafiəçisinin 18 may 2021-ci il tarixli ictimai bəyanatı ilə bu ünvanda tanış olmaq olar: https://rb.gy/cctjo3

müəyyən edilmişlər.[101] Müvafiq olaraq, Xalq Müdafiəçisi cərəyan edən hadisələrə verdiyi ictimai reaksiyada Dmanisinin çoxmillətli əhalisi arasında qarşıdurma təhlükəsini və gələcəkdə oxşar halların qarşısını almaq üçün dövlətin təcili və təsirli addımlar atmasının vacibliyini xüsusi qeyd edib. [102]

Xalq Müdafiəçisinin Aparatı hüquq-mühafizə orqanlarına, qarşıdurmanın tərəfləri arasında yaranan münaqişənin həlli istiqamətində görülən və planlaşdırılan qabaqlayıcı tədbirlər barədə məlumatlar təqdim edilməsi ilə bağlı müraciət edib.[103] Bu müraciətə cavab olaraq göndərilən məlumatlarda göstərilir ki, iş üzrə aparılan istintaq hərəkətləri nəticəsində Dmanisidə yaranan münaqişədə heç bir etnik zəmin amılının və etnik nifrət motivinin olmadığı bildirilib, [104] altı nəfərin zərərçəkmiş olduğu məlum olub və yeddi nəfərə qarşı Gürcüstan Cinayət Məcəlləsinin 126-cı maddəsinin 11-ci hissəsinin "b" və "c" bəndləri (iki və ya daha çox şəxsə qarşı qrup halında döymə və ya digər zorakılıq hərəkətləri) ilə ittiham irəli sürülüb.[105]

Xalq müdafiəçisi diqqəti ona yönəldir ki, nifrət cinayətlərinin birdən çox motivi ola bilər.[106] Bir çox cinayətlər avtomobil qəzası kimi digər səbəblərdən törədilən hadisələr zamanı meydana gəlir və bu motivlər hadisə zamanı mənfi münasibəti cinayət həddinə gətirib-çıxarır. Mübahisələr zamanı belə, irqçi, etnik, dini təhqiramiz ifadələrdən tez-tez istifadə olunur.[107] Ayrı-seçkiliyə yol verilməməsi prinsipi dövlətin üzərinə bütün mümkün tədbirlərlə ayrı-seçkilik motivi ilə zorakılıq faktı arasında iddia edilən əlaqəni araşdırmaqla bağlı müsbət öhdəlik qoyur.[108]

Dmanisi münaqişəsi tərəflərinin etnik tərkibini və müxtəlif mənbələrin qarşıdurma zamanı etnik zəmində təhqiramiz ifadələrin işlədildiyini bildirməsini nəzərə alaraq,[109] Xalq Müdafiəçisi əhali arasında baş vermiş insidentin milli zəmində zorakılıq qarşıdurmasına çevrilməsini istisna etmir. Deməli, vətəndaş inteqrasiyası siyasətinin gücləndirilməsi, münaqişəyə təsir edən bütün amillərin dərindən öyrənilməsi və gələcəkdə oxşar halların qarşısının alınması zərurəti hələ də gündəlikdə qalmaqdadır.

## 6 LGBT+ icmasının bərabərliyi

---

[101] Bax, misal üçün: https://rb.gy/dfe3zf; https://rb.gy/hykauu; https://rb.gy/9edqte; Dmanisi Münaqişəsi – Əhali arasında başlayan mübahisələrin etnik xəttləri, Sosial Ədalət Mərkəzi, 2021, Burada tanış olmaq olar: https://rb.gy/4pv4jb

[102] Gürcüstan Xalq Müdafiəçisinin 18 may 2021-ci il tarixli ictimai bəyanatı ilə burada tanış olmaq olar: https://rb.gy/cctjo3

[103] Xalq Müdafiəçisinin 17 may 2021-ci il tarixli 13-1 / 4684 saylı məktubu; Xalq Müdafiəçisi Aparatının 4 noyabr 2021-ci il tarixli №13-1 / 10547 saylı məktubu.

[104] Gürcüstan Daxili İşlər Nazirliyinin 28 may 2021-ci il tarixli სამინისტროსMIA 1 21 01340546 saylı məktubu; Gürcüstan Daxili İşlər Nazirliyinin 12 noyabr 2021-ci il №MİA 8 21 02982973 saylı məktubu.

[105] Gürcüstan Baş Prokurorluğunun 29 noyabr 2021-ci il tarixli №13 / 72133 saylı məktubu.

